**AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI**
**NİZAMİ GƏNCƏVİ adına ƏDƏBİYYAT İNSTİTUTU**

*Əlyazması hüququnda*

**LALƏZAR İKRAM qızı ƏLİZADƏ**

# KLASSİK AZƏRBAYCAN ƏDƏBİYYATINDA ALLEQORİYA (XII-XVI ƏSRLƏR)

**5716.01–Azərbaycan ədəbiyyatı**

**Filologiya üzrə elmlər doktoru elmi dərəcəsi almaq üçün təqdim olunmuş dissertasiyanın**

**A V T O R E F E R A T I**

**BAKI – 2017**

Dissertasiya Azərbaycan Milli Elmlər Akademiyası Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun Orta əsrlər Azərbaycan ədəbiyyatı şöbəsində yerinə yetirilmişdir.

**Rəsmi opponentlər:** **Nizami Qulu oğlu Cəfərov,**
akademik, filologiya üzrə elmlər doktoru, professor

**Möhsün Zellabdin oğlu Nağısoylu,**
akademik, filologiya üzrə elmlər doktoru, professor

**Rəhim Nadir oğlu Əliyev,**
filologiya üzrə elmlər doktoru

**Aparıcı müəssisə:** Bakı Dövlət Universitetinin Azərbaycan ədəbiyyatı tarixi kafedrası

**Müdafiə** “ ___ ” ___________ 2017 –cı il saat “____”-da Azərbaycan Milli Elmlər Akademiyası Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun nəzdində filologiya üzrə elmlər doktoru və filologiya üzrə fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün təqdim olunan dissertasiyaların müdafiəsini keçirən D.01.131- Dissertasiya Şurasının iclasında keçiriləcəkdir.

**Ünvan:** AZ 1143, Bakı şəhəri, H.Cavid prospekti 115, Akademiya şəhərciyi, AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun Elektron Akt zalı IV mərtəbə.

Dissertasiya ilə AMEA Mərkəzi Elmi Kitabxanasında tanış olmaq mümkündür.

Avtoreferat “_____” ___________2017-ci ildə göndərilmişdir.

**Dissertasiya Şurasının elmi katibi, filologiya üzrə fəlsəfə doktoru:** **İsmixan Məhəmməd oğlu Osmanlı**

## TƏDQİQATIN ÜMUMİ SƏCİYYƏSİ

**Mövzunun aktuallığı.** İnsan şüurlu bir varlıq kimi özünü dərk etdiyi andan həmişə obrazlı düşüncə tərzinə meyl etmiş, yaşadığı cəmiyyətdə baş verən hadisələrin izahı zamanı, bir qayda olaraq təbiət hadisələri ilə analogiyalar aparmış və bununla da onu düşündürən suallara cavab tapmağa çalışmışdır. Bunun bir səbəbi də təbiətin insan şüurunda canlı bir varlıq kimi təsəvvür edilməsidir.

Hər hansı bir fikri, sözü birbaşa deyil, işarələrlə, rəmzlə, eyhamla ifadə etmək zaman-zaman bir estetik tələbat kimi meydana gəlmiş, obrazlı təfəkkür sahibi olan yaradıcı şəxsiyyətlər bu üsulla adi insanlarda bədii zövq duyğusu oyatmağa nail olmuşlar. Bu üsul bədii ədəbiyyatda, söz sənətində alleqoriya adlandırılmışdır.

Alleqoriya bir bədii ifadə vasitəsi olaraq neçə minillər bundan əvvəl olduğu kimi indi də istər rus – Avropa, istərsə də Şərqdə sənətkarların ən çox istifadə etdiyi bir vasitədir. Hər bir sənətkar bu vasitədən öz yaradıcılıq üslubuna uyğun olaraq istifadə edir.

Alleqoriya sözünün hərfi mənasına gəldikdə isə, bu, qədim yunan dilindən tərcümədə "başqa cür deyirəm" kimi çatdırılır[1].

Məlumdur ki, alleqoriya öz yaranışı etibarilə xalq yaradıcılığı ilə bağlıdır. Xalqın xəyal və şüurunda yaranan alleqoriyalara uyğun olaraq yazıçılar da alleqorik surətlər yaratmağa başlamışlar. Bu cəhətdən Azərbaycan ədəbiyyatı da çox zəngindir. Nizami, Füzuli, Seyid Əzim Şirvani, Zakir, Sabir kimi klassik sənətkarlarımız alleqorik səpgidə əsərlər yazmışlar.

Alleqoriyaya verilən təriflərdən çıxış etsək, görərik ki, gerçəkliyin özünəməxsus ifadə vasitəsi kimi onun keçdiyi inkişaf və təkamül yolunun iizlənilməsi və bunun nəticəsi olaraq onun tədqiqat predmetinə çevrilməsi çağdaş ədəbiyyatşünaslıq elmi üçün də aktuallıq kəsb edir. Xüsusən, Şərq ədəbiyyatında və bu ədəbiyyatın tərkib hissəsi olan klassik Azərbaycan poeziyasında alleqoriyanın güclü mövqeyini və poetik polifunksionallığını nəzərə alsaq, tədqiqata cəlb edilmiş mövzunun müasir ədəbiyyatşünaslığımız üçün necə böyük əhəmiyyət daşıması aydın olar.

Alleqoriyadan dünya ədəbiyyatının bir sıra ən gözəl nümunələrində geniş istifadə edilmişdir. Çoxəsrlik ədəbi nümunələri nəzərdən keçirdikdə,

---

[1] Azərbaycan Sovet Ensiklopediyası. On cilddə, I cild. Bakı: Azərbaycan Sovet Ensiklopediyası Baş Redaksiyası, 1976, s. 240.

belə bir qənaətə gəlmək olur ki, bədii sənətdə bu, çox vacib bir ünsürdür. Sənətkarlar bəzən deyilməsi mümkün olmayan fikirləri rəmzlər, eyhamlar vasitəsilə bildirib təqiblərdən qorunmağa çalışmışlar. Öncə bu üçül insanın mifik təfəkkür tərzi ilə bağlı idi. Təbiətdəki canlı və cansız varlıqlarda antromorf sifətlər görən yaradıcı insan, təbii ki, bunu öz bədii təxəyyülünün məhsulu olan əsərlərdə əks etdirirdi. Bunun parlaq və klassik örnəyini təkcə qədim yunan ədəbiyyatında deyil, eyni zamanda, bir çox Şərq xalqlarının ədəbi nümunələrində də izləmək mümkündür.

Onu da deyək ki, alleqoriya deyəndə, ilk növbədə, qədim yunan təmsilçisi Ezop yada düşür. Ezop təmsilin yaradıcısı olmuşdur. Hətta bu ifadə rəmzə çevrilmiş, ədəbiyyatşünaslıqda "Ezop dili" kimi özünə yer tapmışdır.

"Ezop dili" – qədim Yunanıstanda öz fikirlərini müstəqil, açıq deyə bilmədiyinə görə məcazi təmsillər yazan Ezopun (e. ə. IV-V əsrlər) adı ilə bağlıdır. Xalqa zidd olan hər hansı bir ictimai quruluşda qabaqcıl yazıçının öz əsərlərini senzuradan və özünü hökumətin təzyiq və təqiblərindən qorumaq üçün müraciət etdiyi məcazi dil, məcburiyyət nəticəsində qəsdən, üstüörtülü, dumanlı bir şəklə salınmış, işarələr və kinayələrlə dolu ifadə tərzi deməkdir»[1].

Müşahidələr göstərir ki, ta qədimdən alleqoriya konkret bir ədəbi növə məxsus olmayıb, bədii ədəbiyyatın müxtəlif növ və janrlarında özünü gerçəkləşdirmişdir.

Mövzunun aktuallığı Ezop dilinin, fikri alleqorik ifadə etməyin klassik poeziyada hansı bədii üsullarla inikas olunduğunu, hansı növ və janrlarda təcəssüm etdiyini, mifoloji və dini ədəbiyyatda, klassik poeziyada, xüsusilə təsəvvüf dünyagörüşündə, irfani düşüncədə hansı məna çalarları ilə zənginləşdiyini araşdırmaqdan ibarətdir.

Klassik ədəbiyyatın hər hansı bir probleminə baş vurmaq həmişə ortaya yeni suallar qoyur. Ədəbiyyatımızın klassik dövrünün tədqiqi təkcə klassikanı öyrənmək deyil, eyni zamanda müasir ədəbiyyatımızın inkişafı, bizi düşündürən etik-estetik, sosial problemlərin həlli üçün də vacib şərtlərdən biridir.

Mövzunun aktuallığını bir də onunla izah etmək olar ki, vaxtilə, sovet dönəmində klassik ədəbiyyatın tədqiqi və təbliği bir çox hallarda

---

[1]Mir Cəlal Paşayev, Pənah Xəlilov. Ədəbiyyatşünaslığın əsasları. Bakı: Maarif, 1972, s. 59.

ateizm məcrasında aparılırdı. İndi ədəbiyyatşünaslığımız bu antidini bəladan xilas olmuşdur. Əsrlər boyu İslam dininin mənəvi saflıq, Allaha, peyğəmbərə, Qurana sədaqət hissi, halallığa, insanlığa çağırış ideyası dini xurafatla, din adından alver edənlərin şər əməlləri ilə qarışdırılmış, müqəddəs dini rituallar gözdən salınmışdı. Yaxşı ki, klassik poeziyamızda məhz alleqoriya, rəmz, təmsil və simvollar bu xurafata qarşı öz sözünü demişdir.

Azərbaycan ədəbiyyatşünaslığında təsəvvüfün bir fəlsəfi sistem kimi öyrənilməsi yalnız XX əsrin 70-80-ci illərindən başlayaraq reallaşmışdır. «Təsəvvüf-həm din, həm də fəlsəfədir, yaxud, ayrılıqda nə din, nə də fəlsəfədir. Dindən fərqi: insanı və təbiəti o, xaliqin yaratdığı, yoxdan var etdiyi xilqət hesab eləmir, xaliqin özü, onun zərrələri, görüntüləri hesab edir. Dindar-ibadətlə, sufii-eşqlə, kamala yetməklə haqqa yetmək yolunu tutur»[1] . Təsəvvüf başdan-ayağa rəmzlər, simvollar və alleqorik ifadə vasitələri ilə zəngindir. Deyək ki, sufi lirikası, hürufi təlimini təbliğ edən poeziya əksərən elə bunun üzərində qurulmuşdur. Sufi-təsəvvüf ədəbiyyatında alleqoriyanın oynadığı müstəsna rol müsəlman mədəniyyəti kontekstində mühüm əhəmiyyət kəsb edir. “Quran” əsasında formalaşdığından orta əsrlər müsəlman poetik strukturu, bədii intellektin, alleqoriya-məcaz müstəvisində vahid bir sistemə xidməti ilə formalaşır. Ərəb, İran, Əfqan, Mərkəzi və Orta Asiya, Hind xalqlarının klassik poeziyasında ümumi, ortaq olan, bədii metod, alleqoriya və onun mövzu, ideya, sənətkarlıq funksiyası Azərbaycan poeziyasında da öz əksini tapır. Bu analoji uyarlıq, Şərq poetik təhlillərində, sufii alleqoriyasının irfani, fəlsəfi-estetik mahiyyətində ortaya çıxır.

Azərbaycan ədəbiyyatında alleqoriyanın bir bədii vasitə kimi ən çox «hərəkətdə» olduğu dövr XII-XVI əsrlər olmuşdur. Bu, o demək deyil ki, sonrakı əsrlərdə alleqoriyaya müraciət, ondan bir bədii vasitə kimi istifadə olunması zəifləmişdir. Alleqoriya nəinki sonrakı əsrlərdə (XVII-XIX), zəngin ədəbi hadisələr dövrü olan XX əsrdə və müasir dövrümüzdə də bədii əsərlərin ən zəruri ifadə üsulu kimi işlənməkdədir. Lakin XII-XVI əsrlərdə alleqoriya öz mükəmməl və dolğun səciyyəsi ilə seçilmiş, sonrakı əsrlərdə yaranan bədii əsərlər üçün örnək rolunu oynamışdır. Alleqoriya Qətran Təbrizi, Nizami, Xaqani, İzzəddin Şirvani, Mücirəddin Beyləqani, Qtvami

---

[1] Y.Qarayev.Tarix: yaxından və uzaqdan. Bakı: Sabah, 1996, s. 94.

Mütərrizi, Əbülüla Gəncəvi, Fələki Şirvani, Məhsəti Gəncəvi, Həsənoğlu, Qazi Bürhanəddin, Nəsimi, Xətai, Kişvəri, Əvhədi, Füzuli kimi ustad sənətkarların yaradıcılığında milli bədii düşüncənin təcəssümünə çevrilmişdir. Bu sənətkarların yaradıcılığında alleqoriyanın təzahürü iki istiqamətdə diqqəti cəlb etmişdir. Birinci halda alleqoriya əsasən bədii təsvir vasitələrinin üzərində meydana çıxmışdır. Məsələn, saray şeirinin xüsusi janrı olan qəsidələrdə Yaxın Şərq şeirində ənənə halında işlənən Süleyman, Yaqub, Əyyub, Yusif və s. dini şəxsiyyətlərin adlarından bir bədii obraz kimi bəhrələnməklə məcazlar sistemi yaranmışdır. Klassik poeziyada çox işlənən məcaz, təşbih, təzad, mübaliğə, metafora kimi bədii təsvir arsenalının böyük bir qismi alleqorik məna daşımışdır.Yaxud, yaradıcı təxəyyüldə təbiət alleqoriyası özünə əbədi yer almış, lirik-psixoloji, əxlaqi-didaktik, ictimai-fəlsəfi görüşlərin tərcümanına çevrilmişdir. Belə ədəbi nümunələrdə təbiət və insan, gözəllik və məhəbbət, həmçinin zəmanədən şikayət motivləri öz əksini tapmışdır.

İkinci halda isə klassik ədəbiyyatda alleqoriyadan istifadə ilə yaranmış müxtəlif janrlı əsərlərin meydana gəlməsi özünü göstərir. Bu tipli janrlar içərisində təmsillər xüsusi yer tutur. Belə əsərlər sırasına Xaqaninin xalq yaradıcılığından istifadə yolu ilə yazdığı kiçik bir təmsili, Nizaminin "Sirlər xəzinəsi" əsərində bir neçə alleqorik hekayəsi, Əvhədinin, Şah Qasım Ənvarın, Xətainin əsərlərindəki təmsillər bu sıraya daxildir[1]. Bu baxımdan, heç şübhəsiz, Füzulinin "Bəngü Badə", "Söhbətül əsmar", "Həft cam" poemaları, həmçinin "Səhhət və Mərəz"i mühüm yer tutur.

Beləliklə, deyə bilərik ki, orta əsrlər Azərbaycan poeziyasında alleqoriya çox mühüm bir mövqeyə malik olmuş və ən müxtəlif ideya-estetik funksiyaları yerinə yetirmişdir.

**Mövzunun işlənmə dərəcəsi və tədqiqat tarixi.** Azərbaycan ədəbiyyatşünaslığında alleqoriyanın mövqeyi, təşəkkülü və inkişafı ilə bağlı bir sıra məqalələr yazılmış, klassik ədəbiyyatdan söz açan bəzi monoqrafiyalarda isə alleqoriyaya aid müəyyən fikirlər, mülahizələr söylənilmişdir. Ədəbiyyat tarixi cildlərində və «Ədəbiyyat nəzəriyyəsi» dərsliklərində bu anlayışla bağlı bir-birindən fərqli və eyni zamanda, bir-birini təkrar edən mülahizələrlə, fikirlərlə qarşılaşırıq. Professor Cəfər Xəndanın 1958-ci ildə nəşr edilmiş "Ədəbiyyat nəzəriyyəsi"ndə alleqoriya

---

[1] Həmid Araslı. Böyük Azərbaycan şairi Füzuli. Bakı: Azərbaycan Uşaq və Gənclər Ədəbiyyatı Nəşriyyatı, 1958, s.165-166.

simvola yaxın bir anlayış hesab edilir. Fərqi budur ki, alleqorik surətlər daha geniş anlamda qəbul edilir. Alleqorik hadisələrin təmsillərdə daha çox yer aldığı qeyd olunur[1]. Professor Mikayıl Rəfilinin "Ədəbiyyat nəzəriyyəsinə giriş" dərsliyində belə bir bölmə var: "Alleqoriya və simvol". Burada alleqoriya ilə simvol arasında bir bağlılıq olduğundan söz açılsa da, əsas diqqət alleqoriyanın tərifinə, mənşəyinə və bədii ədəbiyyatda işlənməsinə yönəldilib. Eyni zamanda alleqoriyanın tərifi verilərkən onun simvoldan fərqi də aydınlaşdırılır: "Alleqoriyadan məqsəd bir məcazı oxucuya çatdırmaqdır. Simvol daha çox hissə əsaslandığı halda, alleqoriya şüura daha yaxındır, daha çox mücərrəddir, xəyali məfhum ifadə edir.Alleqoriya simvola yaxın olsa da simvol deyildir"[2].

Professor Mir Cəlal və Pənah Xəlilovun "Ədəbiyyatşünaslığın əsasları" dərsliyində simvol (rəmz) və alleqoriya (təşxis) haqqında nisbətən dəqiq və doğru-düzgün izahlar verilir. İlk növbədə, bunlar bir-birilə qarışdırılmır, hər birinin özünəməxsus xüsusiyyətləri şərh olunur. Alleqoriya haqqında verilən tərif sonralar digəır müəlliflərin dərsliklərində də təkrar olunur: "Bəzi kitablarda bunu təşxis (şəxslənlirmə və ya dilə gətirmə) adlandırırlar. Burada insanlara xas olan hadisə və xüsusiyyətlər cansızların, bitkilərin, heyvanların simasında təsvir olunur. Təbiət insan kimi canlandırılır, danışdırılır və mənalandırılır"[3]. Son illərdə nəşr olunan bir neçə "Ədəbiyyat nəzəriyyəsi" dərsliklərində də, alleqoriya haqqında qismən də olsa, müəyyən məlumatlarla qarşılaşırıq. Professor Xalid Əlimirzəyevin "Ədəbiyyatşünaslığın elmi-nəzəri əsasları" əsərində simvol (rəmz) və alleqoriya haqqında bölmələr təqdim edilir. Müəllif M.Rəfiliyə istinadla alleqoriya ilə simvolu bir-birindən fərqləndirir. Onun alleqoriya haqqında tərifinə diqqət yetirək: "Alleqoriyada yazıçı açıq deyə bilmədiyi fikirləri, mətləbi başqa ünvana-təbiətə, bitkilərə, yaxud heyvanat aləminə keçirdir. Bu aləmə, insana, cəmiyyətə xas olan xüsusiyyətlər verir, onu canlandırır, dilə cətirir, şəxsləndirir, bədii həqiqətə, sənətin predmetinə çevirir"[4]. Professor Abbas Hacıyevin "Ədəbiyyat nəzəriyyəsi"[5] dərsliyində

---

[1] Cəfər Xəndan. Ədəbiyyat nəzəriyyəsi. Bakı: Azərnəşr, 1958, 287s.

[2] Mikayıl Rəfili. Ədəbiyyat nəzəriyyəsinə giriş. Bakı: Lenin adına APİ-nin nəşriy yatı. 1958, s. 144.

[3] Mir Cəlal, Pənah Xəlilov. Göstərilən əsəri, s. 89.

[4] Xalid Əlimirzəyev. Ədəbiyyatşünaslığın elmi-nəzəri əsasları. Bakı: Elm və təhsil, 2011, s. 220.

[5] Abbas Hacıyev. Ədəbiyyat nəzəriyyəsi. Bakı: Mütərcim, 1996, s. 193-194.

təxminən eyni, oxşar mülahizələrlə qarşılaşırıq. Eyni fikri professor Nizaməddin Şəmsizadənin "Ədəbiyyat nəzəriyyəsi" dərsliyində verilən təriflər barədə söyləyə bilərik.[1] Filologiya elmləri doktoru Rəhim Əliyev "Ədəbiyyat nəzəriyyəsi"ndə alleqoriyanın səciyyəvi xüsusiyyətlərini açıqlayarkən alleqorik obrazları rəmzi – simvolik, mistik olaraq fərqləndirir. Bildirir ki, alleqorik obrazların basilica cəhəti onların "ikinci məlumat çatdıra bilməsidir"[2].

Göründüyü kimi, "Ədəbiyyat nəzəriyyəsi" dərsliklərində təqdim olunan məlumatlar çox yığcamdır və bunu müəlliflərə irad tutmaq olmaz. Çünki bu tipli dərsliklərdə alleqoriya haqqında daha geniş məlumat vermək müəlliflərin imkanı xaricindədir. Bununla yanaşı, ədəbiyyat tarixi cildlərində, həmçinin bir sıra monoqrafiyalarda, fəlsəfə doktorluğu və elmlər doktorluğu dissertasiyalarında alleqoriya ilə bağlı bilgilərlə qarşılaşırıq[3]. Mövzu çərçəvəsində daha çox müraciət olunan əsərlərin adlarını nümunə gətirilməklə alleqoriya ətrafındakı fikir və mülahizələrə tarixilik baxımdan münasibət bildırılmişdir[4].

---

[1] Nizaməddin Şəmsizadə. Ədəbiyyat nəzəriyyəsi. Bakı: Proqres, 2012, s. 122.

[2] Rəhim Əliyev. Ədəbiyyat nəzəriyyəsi. Bakı: Mütərcim, 2008, s. 42.

[3] Həmid Araslı. Böyük Azərbaycan şairi Füzuli..., s..165-191.

[4] Məmməd Cəfər. Füzuli düşünür. Bakı: Gənclik, 1958, 235 s; Mir Cəlal. Füzuli sənətkarlığı. Bakı: ADU nəşriyyatı, 1958, s. 241-257; M.Quluzadə. Füzulinin lirikası. Bakı: Elm, 1965, 475 s; Məmmədağa Sultanov. Təmsillər və alleqoriyalar (XVI-XX əsr Azərbaycan şairlərinin əsərlərindən toplanmışdır). Bakı: Cənclik, 1978, 63 s; Azadə Rüstəmova. Azərbaycan epik şeirinin inkişafı yolları (XII-XVII əsrlər). Bakı: Elm, 1975, 287 s; Lalə Əlizadə. Füzulinin gizli sözü. Bakı: Yazıçı, 1990, 128 s; Nüşabə Araslı. Nizaminin poetikası. Bakı: Elm, 2004, 454 s; F.Qasımzadə. Qəm karvanı, yaxud zülmətdə nur. Bakı: Azərnəşr, 1968, 360 s; .N.Göyüşov. Təsəvvüf anlamları və dərvişlik rəmzləri. Bakı: Tural, 2001, 240 s; F.Qurbansoy. Orta əsrlər Azərbaycan ədəbi ənənəsində irfani rəmzlərin təkamülü // Beynəlxalq ictimai elmlər jurnalı, **2009, № 3, 528 s;** V.İ. Braginskiy. Simvolizm sufiyskoqo puti v «Poeme o More jenşin» i motiv svadebnoqo korablya (v kniqe "Sufizm v kontekste musulmanskoy kulturı"). Moskva: Nauka, 1989, 341 c; Kratkaya literaturnaya ensikloaediya. Moskva: Nauka, tom XII, 1972, 850 c; M.A.Rudov. Janr basni v russkoy literature. Frunze: İzd. "İstorioqrafiya", 1924, 250 c; "Sufizm v kontekste musulmanskoy kulturı". Moskva: Nauka, 1989, 341 c. və s.

Bununla belə, qeyd etməyi lazım bilirik ki, bu mövzudan söz açılanda, elmi yazılarda, alleqoriyanın bədii söz sənətində oynadığı intellektual, elmi-idraki, dini-fəlsəfi, etik-estetik mahiyyəti, ideoloji-məfkurəvi, irfani səciyyəsi bəzən diqqətdən kənarda qalır. Bir qayda olaraq alleqoriya poetik təsvir vasitəsi qismində, məcaz və məcazın növləri kimi təqdim edilir. Belə yanaşma alleqoriyanın məcaz-metafora sistemində funksionallığının üst qatını açıqlayır. Halbuki, alleqoriya öz mahiyyətinə görə çoxqatlı mənalara malik olub, əslində, real şəkildə mövcud olmayanın təsəvvürdə mövcudluğu, yaxud var olanın yox qismində qəbul edilməsidir. Deməliyik ki, bu, həqiqətdən məcaza, məcazdan həqiqətə gedən abstrakt-mücərrəd anlayışların interpretasiyası timsalı qismində hər hansı bir mövzu, ideya, hadisə və əhvalatın təqdimində müəyyən kompozisiya və süjet daxilində xarakterik obrazların nitqində özünü göstərməsi ilə əlaqədar da xüsusi əhəmiyyət daşıyır.

**Tədqiqat işinin məqsədi** ölməz ədəbi-bədii dəyərlər sırasına daxil olmuş klassik poeziyamızda konkret bir ifadə üsulunun-alleqoriyanın hansı ideya-estetik funksiyalar daşıdığını və ümumən klassik dəyərlərin çağdaş cəmiyyət həyatına inteqrasiyasındakı rolunu üzə çıxarmaqdır. Məqsədin yerinə yetirilməsi üçün aşağıdakı vəzifələr müəyyənləşdirilmişdir:

- Alleqoriya haqqında nəzəri anlayışın verilməsi;

-Yazılı ədəbiyyata gətirilməmişdən qabaq mifoloji və dini ədəbiyyatda alleqoriyanın ifadə, təsvir və üslub vasitəsi kimi inikas xüsusiyyətinin nəzərə çatdırılması;

-Klassik poeziyada alleqorik təsvirlərin yerinin və ideya-estetik mənalarının aydınlaşdırması;

-Təsəvvüf dünyagörüşündə alleqoriyanın başlıca bədii təqdim vasitələrindən biri olduğunun açıqlanması;

-İrfan fəlsəfi-bədii düşüncənin formalaşmasında Quran alleqoriyasının xüsusi rolunun müəyyənləşdirilməsi;

- Sosial motivlərin bədii təcəssümündə alleqoriyadan istifadə;

-Xaqani Şirvaninin, Nizami Gəncəvinin (ümumən XII əsr söz ustadlarının) və XIII-XIV əsr Azərbaycan şairlərinin yaradıcılığında alleqoriyanın mühüm rolunun və funksiyasının tədqiqi;

-Hürufi poeziyasında alleqoriyanın ideya-estetik mövqeyinin aşkarlanması;

-Orta əsrlər Azərbaycan poeziyasında alleqoriya sənətinin Füzuli mərhələsi haqqında geniş təsəvvürün yaradılması.

**Dissertasiyanın nəzəri-metodoloji əsasları.** Dissertasiya tarixi-müqayisəli və sistemli təhlil metodları əsasında yazılmışdır. Mövzunun xarakterinə, araşdırma obyektinin mahiyyətinə uyğun olaraq iş

hazırlanarkən Azərbaycan və Şərq xalqları ədəbiyyatlarında geniş yayılmış müvafiq lirik janrların tədqiqi sahəsində əldə olunmuş nailiyyətlərə, toplanılan təcrübəyə istinad edilmiş, Azərbaycan ədəbi fikrinin müddəaları diqqətə alınmış, nəzəri-estetik və ədəbi-tarixi yönlü araşdırmaların elmi-məntiqi vəhdəti təmin olunmuşdur. Məlumdur ki, müasir ədəbiyyatşünaslıqda klassik ədəbiyyatın tədqiqinin müəyyən nəzəri prinsipləri vardır. Bu prinsiplər istər elmi-tənqidi, istərsə də bədii əsərlərin başlıca xüsusiyyətlərini, forma və üsullarını öyrənmək baxımından müəyyən rol oynayır. Tədqiqatın metodoloji əsasını bu mənada **tarixi-müqayisəli təhlil üsulu** təşkil edir.

**Araşdırmanın obyekti və predmeti.** Dissertasiya işinin əsas obyekti gerçəkliyin obrazlı – simvolik forması kimi müəyyənləşən alleqoriyanın bədii kateqoriya olaraq təzahür etdiyi XII – XVI əsrlər klassik Azərbaycan poeziyasıdır. Mifoloji və dini təsəvvüf ədəbiyyatı nümunələri, əxlaqi – estetik, irfani dünya görüşünü ifadə edən əsərlər dissertasiya işinin predmetini təşkil edir.

**Tədqiqatın elmi yeniliyi.** Dissertasiyada araşdırma zamanı əldə edilmiş elmi yeniliklər aşağıdakı qaydada təqdim olunur:

-Azərbaycan ədəbiyyatşünaslığında ilk dəfə olaraq klassik poeziyada alleqoriya mövzusu sistemli şəkildə araşdırılır, onun bir bədii vasitə kimi səciyyəvi əlamətləri, simvola yaxınlığı və fərqli tərəfləri aydınlaşdırılır. Alleqoriya bir ədəbi-fəlsəfi kateqoriya kimi nəzərdən keçirilir.

-Alleqoriyanın termin kimi ifadə etdiyi mənalar, konkret məzmun, məna və mahiyyəti ilə ədəbi janrlar arasındakı bağlılığı ilk dəfə olaraq bu dissertasiyada araşdırılır.

-Orta əsrlər poeziyasında alleqoriyanın mövqeyi və ədəbi-estetik missiyası konkret elmi mülahizələr əsasında müəyyən edilir, sənətkarların alleqoriyaya müraciətinin hansı sosial-etik meyarlardan yanaşması aydınlaşdırılır.

-İlk dəfə olaraq təsəvvüf və irfan dünyagörüşündə alleqoriyanın başlıca bədii təqdim üsulu kimi xüsusi rolu nəzərə çarpdırılır və bu məsələ ilə bağlı mövcud elmi mülahizələr sistemləşdirilir.

- XIII-XVI əsrlər Azərbaycan poeziya məktəbi ənənələrini anadilli ədəbiyyat zəminində davam etdirən Azərbaycan şeirində alleqoriyanın mövqeyi və yerinə yetirdiyi ideya-estetik missiya ətraflı şəkildə və ilk dəfə olaraq tədqiqatda öz elmi ifadəsini tapır.

-Dissertasiya işində yeri düşdükcə klassik irs və müasirlik əlaqəsinə də diqqət yetirlmiş, müstəqillik qazanmış çağdaş insanların düşüncələrində, gerçəkliyə münasibətində alleqoriyanın rolundan, tərbiyəvi əhəmiyyətindən söz açılmışdır.

**Araşdırmanın elmi-nəzəri əhəmiyyəti** ondadır ki, XII-XVI əsrlər Azərbaycan poeziyasındakı alleqoriya gerçəkliyin bədii-simvolik inikas forması kimi kompleks şəkildə ыalınır, müxtəlif səpkili əsərlərin məqsədəuyğun qaydada təhlil və izahına çalışılır. Bu da nəticə etibarı ilə müəyyən elmi-nəzəri fikirlər və mülahizələrin ortaya çıxmasına zəmin yaradır, alleqoriya problematikasına daha aydın işıq salınmasına imkan verir.

Araşdırma nəticəsində meydana çıxan müddəalardan və əldə olunan qənaətlərdən XII-XVI əsrlər Azərbaycan ədəbiyyatında alleqoriya, simvol, məcaz problemləri ilə bağlı bir sıra elmi-nəzəri məsələlərin həllində istifadə edilə bilər.

**Araşdırmanın elmi-praktik əhəmiyyəti.** Dissertasiyadan Azərbaycan ədəbiyyatı tarixi və nəzəriyyəsi üzrə mühazirələrdə, ayrı-ayrı klassik şairlərin yaradıcılığındakı alleqoriya ətrafında ortaya çıxan suallarla bağlı xüsusi kurslarda və seminarlarda istifadə etmək mümkündür.

Dissertasiyadakı təhlillərdən, alleqoriya haqqında əldə olunan qənaətlərdən "Ədəbiyyat nəzəriyyəsi" kitablarına əlavə oluna bilər. Filologiya və şərqşünaslıq fakültələrində seçmə fənn çərçivəsində tədris üçün yararlı hesab edilə bilər. Eyni zamanda bu elmi – nəzəri qənaətlərdən mövzuya uyğun dissertasiyaların yazılışında da yararlanmaq olar.

**İşin aprobasiyası.** Dissertasiya işi AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun Orta əsrlər Azərbaycan ədəbiyyatı şöbəsində (şöbənin nəzdindəki "Füzulişünaslıq" sektorunda) yerinə yetirilmişdir. Dissertasiyanın əsas müddəaları tədqiqatçının "Füzulinin gizli sözü", "Füzulini tədris edərkən", "Söz gözəlinin örtüyü", "Məhəmməd Füzuli" adlı kitablarında, ölkə daxilində və xaricdə çap olunmuş çoxsaylı məqalə və beynəlxalq konfrans materiallarında öz əksini tapmışdır.

**Dissertasiyanın strukturu.** Tədqiqat işi giriş, dörd fəsil, nəticə və istifadə olunmuş ədəbiyyat siyahisindən ibarətdir.

## DİSSERTASİYANIN ƏSAS MƏZMUNU

**Girişdə** mövzunun aktuallığı, işlənmə dərəcəsi və tədqiq tarixi, elmi yenilik, tədqiqatın qarşısında duran məqsəd və vəzifələr, dissertasiyanın metodoloji əsası, tədqiqatın nəzəri və praktik əhəmiyyəti, işin aprobasiyası və strukturundan danışılır.

Dissertasiyanın **I fəsli "Alleqoriya – gerçəkliyin bədii – simvolik inikas forması kimi" adlanır.** Bu fəslin **"Alleqoriya termininə ümumi bir baxış və mövzunun tədqiqat tarixi"** adlanan birinci bölməsində alleqoriya anlayışına ümumi bir nəzər salınır. Alleqoriyanın obrazlı

təfəkkür hadisəsi kimi bəşər tarixinin bütün dövr və mərhələlərində özünə yer almasından bəhs açılır. Onun yaranış və inkişaf tarixinə məlum qaynaqlar rakusundan baxış Şərq və Qərb ədəbiyyatları üzərində aparılır. Dissertasiya boyu mifoloji, sosial və tarixi aspektlər müqayisəli şəkildə tədqiqatın əsas predmetinə çevrilir. Alleqoriyanın estetik–əxlaqi məzmunu bədii təfəkkür işığında nəzərdən keçirilir, şifahi və yazılı ədəbi nümunələr tarixi, milli, ictimai–siyasi mövqedən təhlilə cəlb olunur.

Alleqoriya ətrafında elmi–nəzəri baxışların sistemləşdirilməsi, eləcə də onun bir termin kimi nəzərdən keçirilməsi və bu ətrafda məlum mülahizələrə münasibət də burada özünə yer tapır.

Alleqoriya bir bədii kateqoriya, gerçəkliyin obrazlı simvolik inikas forması kimi nəzərdən keçirilərkən klassik poeziya nümunələri tədqiqat obyekti olaraq əsas götürülür.

Tədqiqatımızın başlıca məramı alleqoriyanın XII – XVI əsrlər Azərbaycan ədəbiyyatında oynadığı rolu müəyyənləşdirmək və bu bədii–estetik kateqoriyanın Orta əsrlər ədəbi–fəlsəfi fikrində gerçəkləşən mövqeyini dəyərləndirməkdir.

Burada Orta əsrlər bədii dünyagörüşünün dövr və zaman kontekstində tarixi səciyyəsi və dəyərləndirməsi Azərbaycan ədəbiyyatında məlum alleqorik əsərlərlə dünya ədəbiyyatındakı nümunələrin qarşılaşdırılması, alleqoriyanın tipik özünüifadəsi təsnif olunur. Tədqiqat işində ədəbi təsirlənmələr "Avesta", "Quran", "Qabusnamə", "Kəlilə və Dimnə", Homer, Ezop, Fəridəddin Əttar, Sədi, Cəlaləddin Rumi və s. müəlliflərin yaradıcılığı əsasında nəzərdən keçirilir. Bu istiqamətdə mövzu və problem ətrafında mülahizə və elmi qənaətlər ardıcıllıqla ortaya qoyulur.

Alleqoriyanın bir bədii kateqoriya kimi ədəbi nümunələrdə işlədilməsinə abstrakt təfəkkür mövqeyindən mövcud mülahizələr işığında baxarkən bir qayda olaraq təmsillə alleqoriyanın eyniləşdirilməsinə rast gəlirik. Elə buna görə də müvafiq sitatlar üzərində təmsil alleqoriyasını digər bədii növ və janrlarda işlənmiş alleqoriya nümunələrindən fərqləndirməyə çalışmışıq.

Onu da deyək ki, mütəxəssislər arasında alleqoriya ilə bağlı fikir yekdilliyi yoxdur. Müxtəlif əsərlərdə alleqoriyanın rolu, bədii ifadə və təsvir vasitəsi olaraq statusu konkret deyildir. Elə milli ədəbiyyatşünaslığımızda da alleqoriya və onun nəzəri məsələləri fundamental tədqiqə cəlb olunmamış, bu barədə ədəbiyyat nəzəriyyəsi kitablarında, ədəbiyyatşünaslıq terminləri lüğətlərində və ayrı-ayrı dərsliklərdə qısa izahlar verilmişdir. Müxtəlif ensiklopediyalarda isə alleqoriyanın hərfi mənası açıqlanır. Məsələn, Azərbaycan Sovet Ensiklopediyasında deyilir ki, yunanca – rəmz mənasını verən alleqoriya (başqa cür deyirəm) məcaz növlərindən biri olub,

mücərrəd anlayış və fikirlərin konkret obrazlar vasitəsilə əyani ifadəsidir[1]. Bədii ədəbiyyatda (xüsusilə təmsildə), habelə təsviri sənətdə geniş istifadə olunur. (Məsələn, aslan - mərdlik, tülkü - hiyləgərlik, qurd - zülmkarlıq rəmzidir.) Orta əsrlər Şərq ədəbiyyatında mühüm yer tutan alleqorik obrazlar təsviri sənətdə müəyyən mücərrəd anlayışları təcəssüm etdirən fiqurlar qrupu və kompozisiyalar qismində məzmun kəsb edib müxtəlif atributlarda ehtiva olunur.

Professor Əziz Mirəhmədov "Ədəbiyyatşünaslıq terminləri lüğəti"ndə[2] məcaz və məcazın müxtəlif növlərini alleqoriya anlayışı daxilində araşdırır. Alleqoriyanın romantizmdə də mühüm yer tutuduğunu bildirir. Əlbəttə ki, ictimai motivlər də burada istisna olunmur. Əslində, alleqoriya və məcazı müəyyən mənada sinonim sözlər kimi də nəzərdən keçirmək mümkündür.

"Azərbaycan dilinin izahlı lüğəti"ndə bu barədə belə yazılır. "İstiarə, (ərəbcə) sözlərin ifadələrin hər hansı bir təşbeh, bənzəyiş, müqayisə əsasında məcazi mənada işlənməsindən, yəni bir şeyə (hadisəyə) başqa bir şeyin (hadisənin) səciyyəvi əlamətinin keçirilməsindən ibarət bədii tərz, metafora, məsələn, şücaətli adama, aslan, şir, hiyləgər adama-tülkü deyilməsi kimi"[32]

Professor C.Xəndanın 1958–ci ildə çapdan çıxan "Ədəbiyyat nəzəriyyəsin"də[4] alleqoriya da simvola yaxın hesab olunur. Fərqi ondadır ki, alleqorik surətlər nisbətən daha geniş anlamda qəbul edilir. Alleqorik hadisələrin təmsillərdə daha çox yer aldığı hesab edilir. Bir sıra ədəbiyyat nəzəriyyəsi dərsliklərində də bu məsələlərlə bağlı geniş təhlillərə rast gəlinmir. Alleqoriya bir bədii inikas vasitəsi kimi, ədəbi əsərlərin ən vacib komponenti kimi izah edilərək bütöv bir obrazlı təfəkkür hadisəsi, ifadə və təcəssüm tərzi olaraq daim diqqət çəkmişdir. Çoxyönlü aspektlərdən nəzərdən keçirilə bilən alleqorik forma-məkan, zaman və obrazların ideya, mündəricəsinin, epik-lirik, psixoloji ovqatının bədii inikas tərzi belə müəyyənləşdirilir. Əlbəttə ki, alleqoriya bir bədii inikas əlaməti kimi tam və bitkin şəkildə məhz bu yöndən özünü ehtiva edərək bədii əsərin ən vacib kom-

---

[1] Bax: Azərbaycan Sovet Ensiklopediyası. On clddə, I cild. Bakı: Azərbaycan Sovet Ensiklopediyası Baş redaksiyası, 1976, s. 240.

[2] Ədəbiyyatşünaslıq terminləri lüğəti. Bakı: Maarif, 1978, s. 111.

[3] Azərbaycan dilinin izahlı lüğəti. I cild. Bakı: Azərb. SSR EA – nın nəşriyyatı, 1966, s. 7.

[4] C. Xəndan. Ədəbiyyat nəzəriyyəsi.Bakı:Azərnəşr,1958, s.287.

ponenti səviyyəsində anlaşıla və tədqiqə cəlb oluna bilər. O zaman alleqoriya bütöv bir obrazlı təfəkkür hadisəsi, milli təfəkkürün gerçəkliyə, dövrə və zamana poetik müdaxilə yönləri, ifadə və inikas tərzi, məzmun və formanın vəhdətini özündə sistemləşdirən poetika məsələsi olaraq öz yerini tapa və əhəmiyyət kəsb edə bilər.

Birinci fəslin **"Alleqoriyanın bədii əsərlərin müxtəlif janrlarında gerçəkləşən əlamətləri"** adlanan ikinci bölməsində dünya ədəbiyyatından seçmə nümunələr əsasında müqayisəli şəkildə araşdırma aparılır. Azərbaycan klassik poeziyasında yer alan ədəbi nümunələrdə alleqoriyanın mövqeyi onun müxtəlif növ və janrlarda gerçəkləşməsi araşdırılır. Məqsəd alleqoriyanın bədii inikas vasitəsi qismində tarixən işlədilməsi və buna elmi–nəzəri yöndən verilən dəyərlərin ortaya çıxarılmasıdır. Bu baxımdan elmi tədqiqatımızda özünə yer alan bəzi məqamları müxtəsər şəkildə təqdim edirik.

Artıq qeyd etdiyimiz kimi, daha çox təmsillərdə müraciət olunduğundan çox zaman alleqoriya təmsil ilə eyniləşdirilmiş, bəzən isə alleqoriya müstəqil bir janr şəklində xarakterizə olunmuşdur.

Yeri gəldikcə qeyd edək ki, təmsil janr olmaqla yanaşı, klassik ədəbiyyatda bədiiyyat və məna gözəlliklərinə xidmət edən poetik forma hesab edilmişdir. O nəsr və nəzmdə işlənən elə poetik vasitədir ki, müəyyən bir cümlə və ya ifadə, zərbul – məsəl və yaxud hikmətamiz söz şəklində verilir, fikrin və məzmununun gücləndirilməsinə xidmət edir.

Göründüyü kimi, təmsil janrının özündə alleqoriya bir ədəbi vasitə qismində gerçəkləşə bilir. Mücərrəd düşüncənin konkretləşdirilməsində, yaxud real həyat hadisələrinin obrazlı dillə şərti – metaforik fiqurların timsalında təsviri üçün əlverişli, münasib bir bədii tərzdir. Təmsil klassik ədəbiyyatımızda, həmçinin folklorda aparıcı janr və bədii ifadə vasitəsi olaraq həmişə işlənmiş, ona maraq və ehtiyac duyulmuşdur. Təmsillərdə, həmçinin poema, nağıl, dram və s. janrların tərkibində də alleqoriya bir bədii ifadə, fikrin təcəssüm tərzi kimi işlənilmişdir. Onu da deməliyik ki, təmsil əlahiddə müstəqil bir janr olmaqla bərabər, müxtəlif əsərlərdə yeri gəlmişkən hər hansı əhvalat, hadisə, eləcə də süjetlə əlaqədar, məqamına görə söylənilə də bilər. Bu cəhətdən təmsil tarixən müdrik sözlər, atalar sözü və məsəllər, hədis, hekayət, bir sözlə, hikmət təlqin edən didaktik təsir nümunəsinə çevrilmişdir. Yazılı ədəbiyyatımızda da xeyli müdrik söz, aforizm var ki, bunlar öz siqlətinə, fəlsəfi-estetik tutumuna, konkretliyinə, əxlaqi mahiyyətinə və inikas formasına görə alleqorik xarakter daşıyır.

Dediklərimizi yekunlaşdırsaq deyə bilərik ki, bəşər bədii təfəkkürü tarixində əbədi məskən salmış, sabitləşmiş mənəvi dəyərlərimiz sırasında söz sənətinin bədii inikas vasitəsi olan alleqoriya da bir o qədər qədim və

rəngarəng ənənələrə malikdir. Xalq yaradıcılığı nümunələrindən fərqli olaraq, yazılı ədəbiyyatlardakı obraz, xarakter, mövzu, ideya və süjetlər xeyli mürəkkəb və dərin məzmunludur. O səbəbdən də həmin əsərlər üzərində daima ziddiyyətli fikir və mülahizələr səslənmiş, izahı örtülü, gizli qalan neçə-neçə məna, mətləb, söz, ifadə, poetik fiqur, kod, öz açıqlamasını, hələ də öz tədqiq – təhlillərini gözləməkdədir. Lakin hər şeyə rəğmən, salnaməçi və təzkirəçi alimlərdən müasirliyə doğru professional elm fədailərinin gərgin axtarışları və fədakar əməyi nəticəsində qədim və orta əsrlərin sirli, möcüzəli dünyasından soraq verən tədqiqat işləri, kitab və monoqrafiyalar sözü gedən problemlə bağlı müəyyən bilgilər əldə etməyə imkan verir.

Birinci fəslin **"Mifoloji və dini ədəbiyyatda alleqoriya"**dan bəhs açdığımız üçüncü yarım bölməsində alleqoriyanın çox qədim zamanlardan meydana çıxması haqqında məlumat təqdim edilir. Görkəmli alimlərimizin məlum tədqiqatlarının bələdçiliyi ilə gəldiyimiz nəticələrdən müxtəsər şəkildə söhbət açıb mifoloji, əfsanəvi, dini, tarixi anlayışlar, hadisə və şəxsiyyətlərlə bağlı süjetlər, mövzular, obraz və xarakterlər üzərində dayanmaqla alleqorik fiqurların, şərti – metaforik təsvirlərin şifahi və yazılı nümunələrini incələməyə çalışmışıq.

Bəllidir ki, rəmzi-metaforik obrazlar, simvolika hələ söz-nitq, dil mədəniyyəti formalaşmazdan da qabaq tətbiqi-təsviri incəsənətin ilk örnəkləri kimi insanlar arasında ünsiyyət yaratmağa xidmət etmişdir. Mifoloji, əfsanəvi, dini, tarixi anlayışlar, hadisə və şəxsiyyətlərlə bağlı süjetlər, mövzular, obraz və xarakterlər məhz bu səpkili alleqorik fiqurlar, şərti-metaforik təsvirlərlə şifahi, sonralar isə yazılı nümunələrdə əksini, bədii təcəssümünü tapmışdır.

Nümunə üçün deyə bilərik ki, bizim eranın I-III əsrlərində Bizansda yarımleqal şəraitdə fəaliyyət göstərən xristian təsviri sənətində əsas antik təsəvvürlərlə bağlı bir sıra simvolik obrazlardan gizli, şərti mənada istifadə olunmuşdur. Yenə də elə xristianlıqda "palma" həyatın ölüm, xeyrin şər, qənaətin nəfs və tamah üzərində qələbəsini təcəssüm etdirməsi barədə mənbələrdə məlumata rast gəlirik. Məsələn, rəssamlıqda "Gəmi"- xristian icması, "Lövbər" "Ümid", "Dimdiyində zeytun qıçası tutmuş göyərçin" - sülh rəmzi imiş[1]. Azərbaycan şairlərindən Xaqaninin "Məntiqüt-teyr"i, Nizaminin "Sirlər xəzinəsi"ndəki (həmçinin, digər poemalarındakı) süjet və hekayələr, Şah Qasim Ənvarın "Ənisül-arifin"dəki hekayətlər, Xətainin "Dəhnamə" poeması və s. alleqoriyanın dünya ədəbiyyatında qəbul olun-

---

[1] Памятники византийской литературы IV–IX веков. Москва: Наука, 1965, с. 85.

muş klassik abidələrindəndir. Azərbaycan ədəbiyyatından danışarkən sözü gedən alleqorik nümunələr sırasında dahi şairimiz Məhəmməd Füzulinin bu səpkidə yazdığı silsilə alleqorik əsərləri xüsusi ilə vurğulanmalıdır. “Söhbətül əsmar”, “Bəngü Badə”, “Səhhət və Mərəz” (“Ruhnamə”) kimi fundamental alleqorik əsərləri, o cümlədən “Oğluma nəsihət” qəsidəsi, “İt və pişik” kimi qitəsi, “Rindü Zahid” adlı simvolik-rəmzi məzmun daşıyan fəlsəfi-didaktik əsəri ilə Məhəmməd Füzuli özündən əvvəlki ənənələrin davam və inkişafı olaraq alleqoriyanın yeni, mükəmməl nümunələrini yaratmışdır.

Dissertasiyada folklor janrları, onların mövzu və qəhrəmanları təhlilə cəlb olunmaqla totemik, mifoloji surətlər və anlayışlar insan, heyvan, dağ və s. təmsili obrazın bədii xüsusiyyətləri araşdırılır.

Görkəmli alimimiz Mirəli Seyidovun “Azərbaycan xalqının soykökünü düşünərkən” kitabında mövzumuzla bağlı maraqlı məqamlardan birini xatırlatmaqla sözü gedən kitabından (“Dədə Qorqud” dastanından alınan bir parçanı) iqtibas edirik.

“Oğuzların qatı düşməni qansız, öz kökünə əl uzadan rəzil Təpəgözlə vuruşan – igid Basat, atası Aruzu belə anır:

Anam adın sorar olsan Qaba Ağac,
Atam adın diyirsən qağan Aslan
Mənim adım sorursan Aruz oğlu Basat

… bu parçadan görünür ki, igid yenilməz Basatın ikili – mifoloji və dünyəvi ata – anası vardır…

Şifahi xalq ədəbiyyatımızda olduğu kimi tətbiqi sənətdə, o cümlədən qədim xalçaçılıqda da mifoloji anlayışların mücərrəd şəkildə əks olunması ilə bağlı müəllif yazır: “Azərbaycan xalq yaradıcılığında yelbuka – əjdaha – ilan onqonu – totemi ilə bağlı çoxlu mifik əfsanələr, nağıllar vardır. Yelbukaya – əjdahaya – ilana inam o qədər geniş yayılıbmış ki, məişətdə işlənən qab – qacaqda onun qabartısı da verilmişdir”. Daha sonra müəllif bildirir ki, Azərbaycan xalçalarında da əjdaha naxışının mifoloji təfəkkürlə təsvirinə rast gəlinir. Berlin muzeyində əjdaha və qartalın (Simurqun) vuruşunu təsvir edən xalça saxlanılır[1].

---

[1] Seyidov M. Azərbaycan xalqının soykökünü düşünərkən. Bakı: Yazıçı, 1989, s. 391.

Azərbaycan klassik ədəbiyyatı da yaranışından bütün əsərlərdə işlənmiş həyat, ölüm, xeyir-şər, müharibə-sülh, sağlamlıq-xəstəlik, işıq-zülmət, aşiqlik-zahidlik, nəciblik-nəcabətsizlik, ədalət-zülm, vüsal-hicran, məhəbbət-nifrət, gözəllik-çirkinlik, səmimiyyət-riya və s. bu kimi anlayışların xaraktercə təkcə bədii inikas tərzinə görə deyil, fəlsəfi mahiyyəti dünyanı dərk ilə bağlı bədii ifadə və inikas tərzi olan alleqoriyaya, onun ikimənalığına, mətnaltı, eyham və işarəti-şərti deyim və təcəssüm imkanlarına borcludur. Məcazi, bədii təyinsiz poeziya – ədəbiyyat deyil, tarixi fakt və sənədli əsər, təzkirə və ya salnamədir.

Obrazlı təfəkkürün əsas ifadə vasitələrindən biri kimi alleqoriyanın çox qədim nümunələrinə "İliada" və onun davamı olan "Odisseya"da rast gəlirik.

Dissertasiyada alleqoriya iki əsas istiqamətdə; dünyəvi, adi məişət kontekstində və sufi-fəlsəfi istiqamətlərdə tədqiqata cəlb edilmişdir. Deyə bilərik ki, ibtidai görüşlərlə bağlı olan alleqorik düşüncə tərzi, sonralar daha dərin məzmun daşıyan sufi – fəlsəfi görüşlərlə bir ahəngə gəlmişdir. Araşdırma zamanı məlumdan məchula, məchuldan məluma doğru gedən təfəkkür formasının, bədii inamın məhz alleqorik təsvirlərdə gerçəkləşməsini izləyirik. Ağacların, bitkilərin, göy-səma cisimlərinin, heyvan və cansız predmetlərin şəxsləndirilməsi, nitqləndirilməsi, bir məlumla digər məchulun izahı, müqayisə və mühakimələrin bəsit və sadə formada mahiyyəti izah olunmaqla müxtəlif dünyagörüşlü sənət adamlarının yaradıcılığında özünün tarixi, fəlsəfi bədii-estetik təfsir və yozumunu tapmışdır.

Yaxın Şərq müsəlman ədəbiyyatlarının ayrılmaz və zəngin bir qolu olan klassik nümunələri Azərbaycan ədəbiyyatı haqqında aparılan tədqiqlərdə sufi-təsəvvüf meylləri, bunların "vəhdəti-vücud" nəzəriyyəsinin təcəssümü, mahiyyəti və bunun insanların dünyagörüşünə təsiri, nüfuzu, didaktik, elmi-irfani baxımdan öyrədici xarakteri təhlil olunarkən alleqoriyanın rolundan da yeri gəldikdə söz açmışlar. Akademiklər Həmid Araslı, Məmməd Cəfər Cəfərov, professorlar Mir Cəlal Paşayev, Mirzağa Quluzadə, Feyzulla Qasımzadə, Azadə Rüstəmova, Sabir Əliyev, Qulamhüseyn Beqdeli, Əlyar Səfərli və başqalarının irəli sürdükləri fikir və mülahizələr bizim araşdırmamız üçün də mötəbər mənbə və istinadgah olmuşdur. Ümumən deyə bilərik ki, bu tədqiqlərdə, yeri gəldikcə, alleqoriyaya sufi ideologiyası işığında nəzər salınmış, bədii əsərlər də vacib komponentlərindən biri sayılmışdır. Biz də həmin fikirlərin ardınca öz qənaət və mülahizələrimizi tədqiqatın predmeti əsasında aydınlaşdırmağa və izaha çalışmışıq.

Dissertasiyada alleqoriyanın obrazlı təfəkkür hadisəsi kimi ilkinliyi, onun dini-ideoloji, siyasi,ələxüsus bədii ədəbiyyatda aparıcı, fəal rolu zaman, dövr və tarixi-sosial baxımdan izlənmişdir.

Dissertasiyanın II fəsli **“Orta əsrlər Azərbaycan ədəbiyyatında alleqorik təsvirlərin yeri və ideya–estetik məna yozumları”** adlanır. Bu fəslin “Klassik poeziyada söz – alleqorik obraz kimi” adlanan birinci yarımbölməsində sözün bədii–estetik mahiyyəti, məcaz–metafora örtüyündə ehtiva etdiyi məna və siqlət araşdırılarkən, əslində onun abstrakt təfəkkür hadisəsi olması nəzərə alınmalıdır. Bəllidir ki, hər səslənən söz hələ bəlağətli sənətkar kəlamı adlana bilməz. Bu fəslin həmin bölməsində klassik söz ustadlarının sənət xəzinəsindən seçmə örnəklər üzərində dayanmışıq.

Klassik poeziyada sözün alleqorik obrazına kifayət qədər nümunələr var, onlardan yeri düşdükcə söz açmışıq. Araşdırma zamanı bir poetik fiqur olaraq sözün daşıdığı fəlsəfi–ideoloji (Nəsimidə), ictimai–siyasi, diplomatik (Xətaidə), əsasən estetik–irfani (Füzulidə ) məna və məna çalarlarına diqqət yönəltmişik.

Söz ilə qılıncın, müdrikliklə gücün vəhdətindən orijinal tarixi-bədii

Söz vardır, kəsdirir başı,
Söz vardır, kəsər savaşı, -
Söz vardır, ağulu aşı,
Bal ilən edər yağ bir söz[1]

bir qəhrəman obrazı yaradan Xətai deyəndə məcazi mənada sözün qüdrətini diplomatik, əxlaqi, mənəvi baxımdan obrazlaşdırır və bir şair-sərkərdə, təriqət başçısı, şair-mürid olaraq alleqorik planda kəlamın ehtiva etdiyi böyük mənaları obrazlı dillə diqqət mərkəzinə çəkir.

Bu fəslin **“Klassik poeziyada söz–alleqorik obraz kimi”** adlanan yarımbölməsində klassik poeziyada sözün alleqorik mənası ətrafında məlum nümunələr əsasında yeri düşdükcə Nəimi, Nəsimi, Xətai və Füzuli kimi ünlü sənətkarların yaradıcılığına istinad edilir. Bir poetik fiqur qismində Nəsimi poeziyasında irfani, siyasi–ideoloji, Xətaidə hərbi–diplomatik, təriqət görüşləri, didaktika yönündən, Füzulidə isə daha çox, lirik–emosional, psixoloji–etik məqsədə ünvanlanan alleqoriya nümunələri təhlil süzgəcindən keçirilir. Onu da qeyd edək ki, mövzu ilə bağlı məqsədə doğru gedərkən klassik dövr sənətkarlarımızın müxtəlif janrlarda, müxtəlif

---

[1] Şah İsmayıl Xətai. Əsərləri. İki cilddə, I cild. Bakı: Yazıçı, 1988, s. 95.

süjetlərdə yaratdıqları əsərləri mövzu və ideya baxımından, başlıca olaraq sənətkarlıq xüsusiyyətləri üzərində müqayisələr, paralellər aparmışıq.

İkinci fəslin **"Təsəvvüf dünyagörüşündə alleqoriya – başlıca bədii təqdim vasitələrindən biri kimi"** adlanan ikinci yarımbölməsində alleqoriyanın çox mənalılığından real dünyəvi xarakterindən, ideya – məntiqi çalarlarından söz açarkən təsəvvüf şeri üzərində xüsusilə dayanmışıq.

Orta əsrlər klassik poeziya nümunələrində alleqoriyanın mühüm mövqeyə malik olması, xüsusilə, hürufilik təliminin banisi Fəzlullah Nəiminin "vəhdəti-vücud" nəzəriyyəsində ortaya çıxdığı bəllidir.

Alleqoriyanın çox mühüm mövqeyə malik olduğu hürufilik təliminin banisi Fəzlullah Nəiminin "vəhdəti-vücud" nəzəriyyəsinin bədii ədəbiyyatdakı əksi xüsusilə bir neçə məqamda ortaya çıxır. Nəimi yaradıcılığında da sufi-təriqət təlimlərinin müəyyən elementləri məhz məcazi şəkildə əks olunurdu. Onun əsərlərində sufizm müddəaları, onların gizli mətləbləri şərti islahatlar, simvollar ilə bədiiləşdirilmiş, orta əsrlər dövrü ədəbiyyatımızın predmetinə, obrazlı dilin ifadəçisinə çevrilmişdir. Sufizmdən törəyən "vəhdəti-vücud"un təriqət ayinləri, qanun kodeksi, təlimlər Azərbaycan xalqının şeir sənətində varlığın alleqorik inikası, mövcud bədii dünyagörüşünün tipik özünüifadə vasitələrindən biri kimi istifadə olunmuşdur.

O da məlumdur ki, alleqoriya tipik xüsusiyyəti etibarı ilə mücərrədliyə, şərtiliyə əsaslansa da, onun məna və mahiyyəti, yeri gələndə şəxslərə, problemlərə, konkret münasibətlərə və hadisələrə ünvanlanır. Alleqorik düşüncə və ifadə tərzi istər qədim mifoloji görüşlərdən, istər dini baxışlardan, istərsə də folklordan gəlsin, fərqi yoxdur, hər bir halda abstrakt məcazi-simvolik xarakter daşıması ilə səciyyələnmişdir.

Dissertasiyada alleqoriyanın klassik Şərq poeziyasındakı problem xarakterik cəhətləri haqqında danışarkən görkəmli rus alimlərinin tədqiqlərindən maraqlı fikirlərə yer ayrılmışdır: N.İ.Priqarinanın "Hafiz və sufizmin fars poeziyasının dilinin formalaşmasına təsiri", M.M.Osipovanın "Əmir Xosrov Dəhləvinin "Doval – rani Xızır xan" məsnəvisində dini – fəlsəfi sufi konsepsiyası", V.B.Braqinskinin "Qadın dənizi haqqında poema"da sufi yolunun simvolizmi və toy gəmisinin motivi", M.Filştinskinin "Ərəb sufilərinin vəhdət təcrübələrinin konsepsiyası", İ.Y.Alekseyevanın "XVIII əsr İran lirik poeziyasında aşiq obrazı", T.X.Starodubun "Sufi xanəgahları, təkyələri ilə bağlı Orta əsrlər memarlığı" və s. bu qəbildən məqalələrinə müvafiq şəkildə istinad edilmişdir. İ.M.Filştinskinin tədqiqatından "Poeziya–ərəb–müsəlman mistiklərinin özünüifadə forması kimi" adlanan məqaləsindən bir fikri xatırlatmaq istərdik. Alim yazır ki, klassik ərəb poeziyasının ənənəvi

obrazları əsasında qurulan, yeni poetik yük almış alleqoriya və rəmz sufi lirikasının əsas strukturuna, elementinə çevrilir[1].

Yaxın Şərq və klassik Azərbaycan poeziyasında sufi lirikasının özünəməxsus şəkildə təşəkkül və inkişafında alleqoriyanın müstəsna yer tutduğu bəllidir. Məlum olduğu kimi Yaxın Şərqdə (VIII–IX yüzilliklərdə) müxtəlif təmayülləri olan sufizm – fəlsəfi cərəyan kimi xalq kütləri arasında öz ideyalarını təbliğ etmək məqsədilə poeziyanın təsir qüvvəsinə müraciət edib, xüsusi sufi lirikası, sufi ditaktik poeziyası yaradırdı. Sufizm dünyagörüşünün bir çox məqamları ortodoks islamın bəzi ehkamları ilə müxalif ruhda olduğundan ona birbaşa deyil, dolayısı yolla müdaxilə edilir, bir növ etiraz səsləndirilirdi. Bu cəhətdən söz sənəti, onun obrazlı deyim üsulu dövrün qabaqcıl insanlarının – ideoloqlarının əlverişli mübarizə vasiətsinə çevrilirdi. Xüsusən, lirik şerdə sufi şairlər alleqoriyanın şifrəli, eyhamlı, mətnaltı məqamlarını təcəssüm etdirən bir çox mətləbləri xalqa çatdırmaqdan ötrü bundan yararlanırdılar. Sufi şairlərinin şerlərindəki poetik fiqurların təsəvvüfi mənasını şərh edən kitablar və lüğətlər də yaranırdı ki, burada alleqoriyanın gizli mətləblər, müəmmalı fikirlər ifadə edən cəhətləri özünü göstərirdi.

Sufi lirikasının struktur prinsiplərinin əsasında alleqoriya və simvolun durduğunu və bununla təkcə bədiilik baxımından deyil, bütövlükdə orta əsrlər ərəb ədəbiyyatının mövzu və ideya istiqamətində xarakterik xüsusiyyət daşıdığını bəllidir. Sonralar Azərbaycan klassik poeziya məktəbinin görkəmli nümayəndələrinin yaradıcılığında da həmin ənənənin davamını görürük. Dissertasiyanın müvafiq bölmələrində biz də bu ətrafda fikir və qənaətlərimizi irəli sürərək sufi lirikasında bol–bol işlədilən məşhur poetik – simvolik fiqurlar, məcaz, onun müxtəlif növlərindən necə istifadə edilməsindən səciyyəvi nümunələr əsasında bəhs açmışıq.

Azərbaycan klassik şeir örnəklərində, xüsusilə də məsnəvi janrında yazılmış əsərlərdə alleqoriyanın məhz belə səpkidə, ideya – mövzu axarında özünə yer aldığı bəllidir. Həmin səbəbdən də dissertasiyada sözü gedən problem ətrafında mülahizə yürüdülərkən Movlana Cəlaləddin Ruminin yaradıcılığıdan söz açılır.

Tədqiqatımızda bir qayda olaraq orta əsrlər Azərbaycan sufi-irfani poeziyasında işlənmiş alleqorik rəmzlərin bir çoxunun forma və məzmun xüsusiyyətlərini, alleqorik rəmz və ifadələrin şeirin dil, üslub və

---

[1]Фильштинский И.М. Суфизм в контексте мусульманской культуры. Москва: Наука, 1989, с. 225.

semantikasında yaratdığı müstəsna yenilikləri, ideya-məzmun, şəkil və forma rəngarəgliyini göstərməyə çalışmışıq. O cümlədən, irfan fəlsəfi–bədii istiqamətlərinin formalaşmasında da Quran alleqoriyasının səciyyəvi xüsusiyyətlərindən danışarkən bu məsələlərə önəm verməyə çalışmışıq.

Klassik Azərbaycan poeziyasında, dahi şairimiz M.Füzuli yaradıcılığında alleqorik təsvirlər, məcaz və məcazın müxtəlif növlərinin təcəssümündə real həyat hadisələri, dünyəvi məhəbbət və gözəllik anlayışlarının tərənnümü ilə yanaşı, dini mövzulardan da istifadə olunduğunu bilirik. Bunların əsasən epik əsərlərdə ideya məzmun planında, eləcə də bədii kompozisiyada, qəhrəmanların xarakterlərində, tipikləşdirmədə və s. yüksək poetik vüsət aldığını, yeri düşdükcə, incələməyə çalışmışıq. Dissertasiyanın xüsusi bir bölməsi məhz bu istiqamətə yönəlmişdir.

İkinci fəslin **"İrfan fəlsəfi–bədii istiqamətinin formalaşmasında Quran alleqoriyasının rolu"** adlanan üçüncü yarımbölməsində irfan fəlsəfəsinə, sufizmə həsr olunmuş tədqiqlər üzərində alleqoriyanın bədii–estetik imkanları dini–irfani problemləri araşdırılır. Orta əsrlər klassik poeziyamızın (XII–XVI) örnəklərində alleqoriyanın dünyəvi, real həyati məsələlərlə yanaşı dini, irfani elmi – fəlsəfi, ruhi, mənəvi–psixoloji anlayış və bilgilərin təcəssüm və təqdimində oynadığı bədii, estetik kateqoriya kimi rolunu dəyərləndirməyə çalışmışıq.

Dissertasiyada "Quran"ın bədii ədəbiyyatda istifadəsi məsələsinə müvafiq şəkildə yer verilmişdir. Məlumdur ki, sufi biliciləri özlərini müqəddəs kitabın - "Quran"ın gizli mənalarının şərhçiləri kimi qələmə vermişlər. Sufi mütəfəkkirləri tamah, hərislik, nəfsi-əmmarə, əxlaq, mənəviyyat, kamillik və s. bu kimi məsələlərə həsr olunmuş surə və ayələrə istinadən, özlərinin zəmanəyə müxalif münasibətlərini səsləndirir, cəmiyyətlə, dövrlə bağlı mülahizələri ortaya çıxarmaqdan ötrü bundan əlverişli vasitə olaraq istifadə edirdilər.

Qədim və orta əsrlər Şərq, o cümlədən Azərbaycan poeziyasında islamaqədərki və islam dövrü ədəbi-fəlsəfi fikrində yaranmış bədii düşüncəni ardıcıllıqla izləyən alimlər sırasında Azərbaycan alimi Ç.Sasaninin "Orta əsrləq Azərbaycan poeziyasında naturalist ədəbi – fəlsəfi fikir" adlanan monoqrafiyasında bizim üçün maraqlı olan cəhətlər çözələnmişdir. Müəllif orta əsrlər poeziyasında insanın və onun boyunun müqəddəs ağaclara – sərvə, tubaya, gül ağacına alleqorik məzmunda bənzədilməsindən söz açarkən Nəiminin aşağıdakı beytlərini nümunə gətirir:

"Daim yaşıl və şaddır o şəcər,
Həm nur xasiyyətləri onda müstəqər,

Oldu insan surətinin misalı tamam,
O şəcər cismdir, nuru kəlam.

Bu müvafiq beytlər əsasında gəldiyi elmi qənaətləri ümumiləşdirərək alim yazır:

"Bu motivin qədim kökləri olsa da, Nəimi onu Qurani-Kərimdən əxz etmişdir. Nuh surəsində (kitabda "Nuh" əvəzinə "Nur" kompüter səhvi getmişdir) (ayə 17, 18) deyilir: "Və Allah sizi (atanız Adəmi) yerdən (torpaqdan) bir bitki kimi yaratdı. Sonra sizi yenə onlara qaytaracaq"[1].

Bu bölmədə filologiya elmləri doktoru Aidə Qasımovanın "Füzuli yaradıcılığında Quran rəvayətləri" monoqrafiyasından da qaynaqlanaraq bəzi səciyyəvi məqamlara münasibət bildirmişik. Alimin tədqiqatında şairin Quran qissələri əsasında yaratdığı məcaz, məcazın müxtəlif növləri təhlilə gətirilir. Quran qissələrindən keçən, Quranın müxtəlif surə və ayələrindən bildiyimiz əhvalatlar dahi Füzulinin yaradıcılığında müstəsna əhəmiyyətə malik bir məqam kimi qiymətləndirilir. Klassik ədəbiyyatda, həmçinin Füzuli ədəbi irsində dini–tarixi şəxslərin, əfsanəvi qəhrəmanların bədii obrazları xüsusi bir elmi–nəzəri yanaşma tələb etdiyindən, dissertasiyanın müvafiq hissələrində bu problemlə bağlı mülahizələrə ayrıca diqqət vermişik. Bəllidir ki, şairin bütün əsərlərində fikir dolayısı, mətnaltı şəkildə, «gizli söz»lə özünü ehtiva edir. Quran rəvayətləri ilə bağlı fikir və mühakimələr də, bu baxımdan istisna deyil.

Bu fəslin **"Sosial motivlərin bədii təqdimində alleqoriyanın imkanlarından istifadə"** adlanan dördüncü bölmədə adından da göründüyü kimi klassik dövr şairlərimizin dünyəvi baxışlarının mütərəqqi görüşlərinin tərənnüm və təbliğində alleqoriyanın müstəsna rolundan bəhs açılır.

Dissertasiyanın bu bölməsində əsasən XV–XVI əsrlər ədəbi abidələrinə üz tutulur. Bəllidir ki, Nizami ənənələrinin davamı təkcə bədii əsərlərin mövzu və süjetlərində deyil, həmçinin onların sosial ictimai motivlərində öz əksini tapmışdır. Mövzumuzla bağlı həmin əsərlərdə zamana, dövrə qarşı narazılıqların, etirazların ifadəsi üçün istifadə olunan alleqorik elementlərdən, simvol – rəmzlərdən necə istifadə olunduğunu araşdırmaqdan ötrü Şah Qasım Ənvar, Kişvəri, Hamidi, Süruri, Həbibi, Xətai kimi mütəfəkkirlərin yaradıcılığına müraciət olunur.

---

[1] Sasani Ç. Orta əsrlər Azərbaycan poeziyasında naturalist ədəbi – fəlsəfi fikir. Bakı: Elm, 2007, s. 32-33.

Deyə bilərik ki, təsəvvüf kontekstində yazıb-yaradan bu dövr sənətkarlarının yaradıcılığında aşiqanə lirik ovqat fəlsəfi dünyagörüşlə qarışır, ictimai münasibətlər də daha çox alleqoriyanın üstüörtülü, eyhamlı dili ilə ortaya çıxırdı.

Bu baxımdan Şah İsmayıl Xətayinin "Dəhnamə"si səciyyəvidir. Ona görə də həmin əsərlə əlaqəli fikirlərimizi davam etdirmişik. Poema adı daxil olmaqla mövzu, ideya, bədii qəhrəmanları ilə başdan–ayağa şərti–metaforik xarakter daşıyır, həyatla ölümün obrazlı təcəssümü, əbədiyyətə qovuşmağın real və mistik boyaları təqdim olunur. "Dəhnamə"nin xalq dastanlarının ruhu ilə səsləşməsi bəllidir.

Şah İsmayıl Xətayinin bu əsərində aşiqlərin məktublar vasitəsilə sevişmələrinin, uğurlu məhəbbətlərinin də sonu ayrılıqla nəticələnir. Onlar da əsl səadəti fiziki-cismani yoxluqdan sonra bəqa bildikləri dünyada görəcəklərinə inanırlar.

Şah İsmayıl Xətayinin "Dəhnamə"sində də bu motiv özünəməxsus şəkildə işlənmişdir. Xalq dastanlarının ruhu ilə səsləşən bir epizod əsərdə hadisələrin inkişafına rəvac verir. Folklor materiallarında Aşiq - lirik qəhrəman yuxuda təsvir olunur, ənənəvi olaraq bir nurlu ruhani dərviş vasitəsilə sevgilisinin butasını alır, ona qovuşur.

Yeri gəlmişkən qeyd edək ki, "Dəhnamə"də bədii təsvir vasitələrindən də yüksək sənətkarlıqla istifadə olunmuşdur. Aşiqin məktub yazarkən mürəkkər, qələm və öz bədən üzvlərindən kömək diləməsi alleqoriyanın çox səciyyəvi poetik görüntüsü hesab oluna bilər. Belə ki, lirik qəhrəman əvvəllər heç bir hərfin əksini bilmədiyi halda eşqə düşəndən sonra yazmağı öyrənir. Əqlinə və gözünə müraciətlə əmr edir ki, yuxu və dinclik bilmədən qələmə sarılmağa səfərbər olsunlar. Sağ əlinə qələm, soluna namə almağı buyurur. Bunların hamısı Aşiq qəhrəmanın hökmünə müntəzir olaraq Məşuqəyə göndəriləcək sözlərin, hərflərin yazılışında fəaliyyət göstərirlər. Məşuqənin zülfü (cim), aşzı (mim), qaməti (əlif) və s. şəklində oxşar hərflərlə yazıya köçürülür. Bu təsvirlər metaforik obrazlı fiqur səciyyəlidir və onlar real, dünyəvi anlayışların metaforik təqdimidir. Klassik poeziyadan məlum qələmiyyələr, gül, kağız və s. predmetlərə xitabən yazılan lirik nümunələr, bədii lövhələr öz növbəsində poemanın dil zənginliyinə, fikir əlvanlığına da təsir göstərir. Məsələn,

Dedim: - Sağ əlim, al imdi xamə,
Dedim: - Sol əlim, dut imdi namə.
Qıldı sözümü qamusu məqbul,
Lövhi-dilim oldu eynə mənqul.

Yondum qələmi, dilini dəldim,
Həm yonub anın yüzüni sildim[1].

Şah İsmayıl Xətayi yaradıcılığında alleqoriya məsələlərlə bağlı mülahizələrimizi "Dəhnamə" üzərində quranda onun epik əsərlər sırasında sənətkarlıq baxımından yüksək yer tutmasını, bədii dilinin xüsusilə fərqləndiyini əsas almışıq. Zahirən sadə və aşkar görünən alleqorik məzmun və nəticə, əslində mətnaltı mənası ilə mövzumuza xüsusi material verir. Məhəbbət motivi mübhəm, gizli, şifrəli sufi-mistik notlarla məhz bu şəkildə ehtiva etdiyindən digər orta əsr şairləri kimi Şah İsmayıl Xətayinin yaradıcılığında da bu bir növ alleqorik planda öz bədii həllini tapır.

Xətayi yaradıcılığı istər şifahi xalq ədəbiyyatı ənənələrinə uyğun xarakteri ilə, istərsə klassik şeir ənənələri baxımından obrazlı dilin gözəl nümunələrini özündə əks etdirir. Biz irəlidəki bölmədə Xətayinin sözə verdiyi məna və dəyərindən söz açarkən yaratdığı bədii təsvirlərin gözəlliyinə və orijinallığına da münasibət bildirmişik.

Şah İsmayıl Xətayi yaradıcılığında alleqoriya məsələlərinin tədqiqini "Dəhnamə" üzərində qurmaqla onun epik əsərlər sırasında sənətkarlıq baxımından yüksək yer tutmasını, bədii dilinin xüsusilə fərqləndiyini vurğulamağa çalmışıq.

**Dissertasiyanın III fəsli "Klassik Azərbaycan poeziya məktəbi nümayəndələrinin yaradıcılığında alleqoriyanın ideya – bədii imkanları" adlanır.**

Bu fəslin **"Orta əsrlər Azərbaycan poeziya məktəbi nümayəndələrinin yaradıcılığında alleqoriya" adlanan birinci** bölməsində dövrə ümumi nəzər salınır. Q.Təbrizi, Ə.Gəncəvi, F.Şirvani kimi sənətkarların alleqoriya yaradıcılığı müxtəsər şəkildə nəzərdən keçirilir.

Əfzələddin Xaqani Şirvaninin bir çox qəsidələrində və Nizami Gəncəvinin "Sirlər xəzinəsi"ndə, həmçinin digər poemalarındakı təmsil-hekayələr, nağıl-dastanların kompozisiyasının, bədii təsvirlərin, simvolik obrazların təqdimində alleqoriyadan nə dərəcədə bəhrələnmələrinə xüsusi yer ayırmış və bu məqamı XI-XII əsrlər saray şeirinin bəzi seçmələri üzərində müəyyənləşdirməyə çalışmışıq.

Şifahi xalq yaradıcılığından qaynaqlanaraq vüsət alan klassik Azərbaycan poeziyası ən gözəl bədii təsvirlərini, simvol-rəmzləri, məhz təbiət

---

[1] Şah İsmayıl Xətai. Əsərləri. İki cilddə, I cild. Bakı: Yazıçı, 1988, s. 247.

mənzərələri fonunda, bitki, heyvanat və nəbatat aləminin, səma cisimlərinin və s. timsalında zamandan-zamana ötürmüşdür. Beləliklə, yaradıcı təxəy-yüldə təbiət alleqoriyası özünə əbədi yer almış, lirik-psixoloji, əxlaqi-di-daktik, ictimai-fəlsəfi görüşlərin tərcümanına çevrilmişdir.

Fələki Şirvaninin yaradıcılığında alleqoriyanın bu səpkidə özünü ifadəsi bir ənənə halında davam etmişdir. O, təzad, mübaliğə, bənzətmə, müqayisə və s. bu tipli bədii elementlərdən çox məharətlə faydalanmaqla işıqlı, zəngin təbiət lövhələri yaradır, eləcə də zəmanədən aldığı zərbələrin ağrı-acısını da dilə gətirir. Fələkinin qəzəl, qəsidə, rübai və s. lirik şerlərin-dən söhbət açan alim Azadə Rüstəmova şairin yaradıcılığından bir parçanı təqdim edərək yazır: “Fələki məcazlarla, simvol – rəmzlərlə danışmağı se-vir”.

Novruz bahar nəsiminin nəfəsinin duyunca,
Qış ayı ilə qərəz və döyüşə girişdi.
Soyuqlamış bülbül bağa üz çevircək,
Hər çəmən lalə və gülnarla alışıb yandı[1].

Bu fəslin **“Xaqani Şirvaninin yaradıcılığında alleqoriya”** adlanan ikinci bölmədə böyük şairin ədəbi irsindəki məcaz-metafıra problemləri araşdırılır.

Xaqani Şirvaninin yaradıcılığında alleqoriya çoxşaxəlidir. Artıq irəlidə deyildiyi kimi alleqoriya bütövlükdə bədii əsərlərinin obrazlı, estetik təsvir vasitəsi, məcaz, metafora bəzəyi olmaqla yanaşı, müstəqil bir janr qismində – təmsildə də özünü bariz şəkildə göstərir. Xaqaninin epik təsvirlə başlanan bir təmsilində kufəli gözəllə kor əcəmin oturub eşqdən söhbət etmələri nəql olunur. Burada gözəl qızın kora aşiqliyində təmənnalı olmasını göstərmək üçün müəllif el içində məsələ çevrilmiş məşhur bir əhvalatı nəzmə çəkir:

Belə bir məsəl var, ver buna diqqət;
Eşşəyə dedilər: “Buyur, toya gəl”,
Eşşək qahqah çəkib güldü, nəhayət, dedi:
“Siz istəyən rəqqas deyiləm,
Nə də çalğıçıtək tapmışam şöhrət.
Hamballıq etməyə çağırırsınız,
Su, odun daşımaq lazımdır əlbət”[2].

---

[1] Rüstəmova A. Fələki Şirvani. Bakı: Elm, 1986, s. 42.
[2] Xaqani Şirvani. Seçilmiş əsərləri. Bakı: Lider, 2004, s. 23.

Göründüyü kimi, burada xalq yaradıcılığından alınmış məşhur məsəl təmsil janrında konkret, lakonik təhkiyə ilə öz bədii təqdimini tapır.

Alleqoriyanın böyük ustası olduğunu qəsidələrində parlaq şəkildə sübuta yetirmiş Xaqaninin "Məntiqüt-teyr" adlı iki mətləli qəsidəsinin başlanğıcında verdiyi bahar təsviri quşların oxuması, çiçəklərin açması ilə müşayiət olunur. Deməк olar ki, burada təsvir edilən mənzərə təbiət alleqoriyasının ən gözəl nümunələrindəndir. Dialoqlar əsasında qurulan həmin bahar lövhəsi öz növbəsində, həm də ictimai motivlərin poetik təqdimidir.

Xaqani Şirvaninin saray mühiti ilə bağlı həyatının tərənnümü olan obrazlı dil ictimai motivlərin təqdimində özünü poetik vüsətini xüsusilə canlandırır. Bəzi lirik - emosional ifadələri, məcazi fiqurları təqdim etməklə bu xüsusda fikrimizi ümumiləşdirməyə çalışmışıq.

Məsələn,

Hər səhər qalxar göyə ah ilə əfqanım mənim,
Qərq olar qanda şəfəqtək çeşmi – giryanım mənim.
***
Qurmuşam qəm məclisi, yaşıl söyüdtək indi bax,
Mey süzür məndən mənimçün qanlı müjganım mənim.
***
Ağzıma iftar vəqti isti göz yaşım axar,
Yoxdur ondan başqa bir iftara imkanım mənim.
***
Oxşayır kündə ayağımda dəyirman daşına,
Qanlı göz yaşımla işlər bu dəyirmanım mənim[1].

İstər ictimai – siyasi, istərsə təbiət və onun gözəllikləri ilə bağlı mövzularda Xaqaninin lirik – emosional tərənnüm vüsəti, məcaz – metafora orijinallığı təkrarsızdır.

Beləliklə, deyə bilərik ki, Orta əsrlər Azərbaycan klassiklərinin sənət dünyası mütərəqqi duyğuların, düşüncələrin, eləcə də dəruni ağrı–acıların məcazi – metaforik dillə təcəssüm tapması ilə səciyyələnir.

Bu fəslin **"Nizami Gəncəvinin yaradıcılığında alleqoriya"** adlanan üçüncü bölməsi bütövlükdə Nizami yaradıcılığından keçən alleqorik

---

[1] Xaqani Şirvani. Seçilmiş əsərləri, s. 248.

məqamların poetik məqsəd və məramının açıqlanmasına yönəlmişdir. Epik şeirimizdə alleqoriyanın işlənməsi, onun sənətkarlıq məziyyətləri dahi Nizaminin “Xəmsə”sində toplanmış poemalar üzərində təhlilə gətirilir.

Məxsusi olaraq silsilə alleqorik əsərlər yazmasa da dahi Nizamini alleqoriyanın böyük ustadı kimi tanıyırıq. Onun “Sirlər xəzinəsi” poemasındakı hekayətlər, parçalar, (“Nuşirəvanla vəziri və bayquşların söhbəti”, “Ovçu ilə tülkünün hekayəti”, “Firidunla ceyranın hekayəti”, “Oğru və tülkü hekayəti”) alleqorik dil, təsvir və ifadə baxımından xeyli maraq doğurur. Bu hekayələr əsasən öyüd–nəsihət səciyyəsi daşıması ilə təmsili surət və xarakterlərinə görə fərqlidir. Alleqoriya "Sirlər xəzinəsi"ndə humanist problemlərin, adil hökmdar axtarışları istiqamətində, bəzən, adi məişət və cəmiyyət problemlərinin həllində öz bədii əksini tapırsa, digər poemalarında əsasən bədii təsvir–kompozisiya və ideya-fəlsəfi baxımından özünü göstərir. Bununla belə, şairin “Xəmsə”sində toplanmış əsərlərində mövzu ilə bağlı hekayətlərə, təmsili obrazlara yer ayrılmışdır. İki bayquşun söhbəti, cehiz məsələsi Nuşirəvan şahın vəzirinin yozumunda açıqlanır. Tülkünün ovçuya sərkisi və ovçunun ona aforistik cavabı, qismətin qaçılmazlığına inam, Firidunun gözəllik qarşısında heyranlığı ucbatından toruna düşən ceyrana qıymaması, qəflətə, yuxuya, ətalətə uyanların tülkütək bic olsalar belə, uduza biləcəklərini, aldanacaqlarını alleqoriyanın təhkiyə formasında, təmsili – metaforik surətlərin dili ilə çatdırarkən Nizami ilk növbədə bir naseh, digər cəhətdən alleqoriyanın şərtiliyinə dərindən bələd olan sənətkar kimi diqqəti çəkir.

Dissertasiyada “Leyli və Məcnun” poemasının müxtəlif hissələrində süjet xəttinə uyğun əsas mətləblə səsləşən təmsil hekayətlərdən də, yeri düşmüşkən nümunələr gətirmişik. “Məcmunun atasına cavabı”nda kəkliklə qarışqanın əhvalatı nəql olunur.

Kəklik qarışqanı dimdikləyərək
Onu dimdiyində sıxırdı bərk – bərk.
Qarışqa kəkliyə gülərək bu an,
Dedi ki, «Sən gülmək bacarmayırsan.»
Yazıq qarışqaya baxaraq dik – dik
«Bu mənim peşəmdir» söylədi kəklik.
Sonra qəhqəhəylə o güldü birdən,
Saldı qarışqanı öz dimdiyindən[1].

---

[1] Nizami Gəncəvi. Leyli və Məcnun. Bakı: Yazıçı, 1983, s. 107.

“Qarğa və tülkü” təmsilini xatırladan belə parçalara da Nizamidə tez–tez rast gəlirik. Məcnunun qarğa ilə söhbəti, ulduzlara şikayəti, vəhşilər arasında yaşaması və s. alleqoriyaya xas olan təmsili xüsusiyyətləri özündə daşıyır.

Nizaminin «Xəmsə»sində üçüncü poema olan “Leyli və Məcnun”da Məcnunun ahuları, maralı azad etməsi haqqındakı söhbətlərdə insanla heyvanların ünsiyyəti, insanın-aşiqin öz eşqini heyvanlarla bölüşməsi, sevgilisinin timsalını ceyran və maralda görməsi təsvir olunurdusa, onun qarğa ilə söhbəti, ulduzlara şikayəti və s. təşxis olaraq fəal funksiya daşıyır. İnsanla, təbiətin, heyvanatın və səma cisimlərin vəhdəti, dostluğu - cəmiyyətdə mümkün olmayan anlaşmanın ondan kənarda gerçəkləşməsi bu qənaəti təsdiq edən məqamlardır.

Həmin gerçəkliyin daha bir orijinal təsvirini “İskəndərnamə”də görürük. İsgəndərin dirlik suyu axtarması, zülmətə gedib-qayıtması alleqorik düşüncə, alleqorik məzmun və ideyanın təcəssümü baxımından xüsusilə qiymətlidir. İskəndərin padşahlıq, alimlik və peyğəmbərlik sifətlərini özündə birləşdirən bu tarixi əsərin yaratmasına səbəb isə Xızırın onun qulağına söylədiklərinin əsasında şair təxəyyülündə formalaşan fikir və düşüncədir.

Dissertasiyada şairin əsərlərindən dediklərimizə uyğun kifayət qədər sitat gətirmişik. Burada fikrimizi bir qədər yığcam şəkildə davam etdirərək poemanın “Şərəfnamə” hissəsindən “Dara elçisinin İsgəndərin yanına gəlməsi” parçasından müvafiq hissəni nümunə almaqla Nizami bədii təfəkkürünün məhsulu olan obrazlı təsviri təqdim edirik.

Poemanın bu hissəsində (tədqiqatımız üçün) maraqlı cəhət odur ki, İsgəndər göndərilənin (elçinin) simvolik mənasını və Daranın bununla nə demək istədiyini başa düşərək dərhal öz yozumunu verir və qəti cavab göndərir.

Nizamini sevimli qəhrəmanı İsgəndər ona göndərilən topu – yer kürəsi, çovkanı isə dünyaya – yer üzünə hakim ola bilməkdən ötrü silah kimi mənalandırır. Ardınca isə küncütü yerə dağıdıb saray quşlarını onları dənləməyə səsləyir. Dara qoşunlarının qarşısını mütləq ala biləcəyini simvolik olaraq bəyan edir. İstər “İsgəndərnamə”də, istərsə də digər poemalarında biz Nizami sözünün bədii hikməti və bu ecazkar poetik gözəlliyin arxasında böyük ictimai, siyasi, mənəvi–əxlaqi, dini–irfani, fəlsəfi düşüncənin gizli, sətiraltı məntiqi mənasını axtarırıq. Məhz axtarırıq, çünki, bu bir baxışla görünməyən, bir düşüncə, bir fəhmlə qavranılmayan sənət dünyası, Nizaminin hikmət və elm xəzinəsidir.

Şairin “Yeddi gözəl” əsərindəki eşq və gözəllik anlayışı bədii–estetik təlqini baxımından məhz alleqorik, rəmzi–metaforik obrazların timsalında reallaşır, məzmun, ideya və kompozisiyada özünü gerçək-

ləşdirir. Bu məqamda AMEA–nın müxbir üzvü Azadə Rüstəmovanın Nizami əsərlərindəki alleoriya, rəmz və simvollar ətrafındakı mülahizələrini diqqətə çatdırmaq istərdik: "Xəlvətlər"dəki alleqoriya ilk baxışda sufi alleqoriyasına oxşayır. Buradakı rəmz-simvollar olsa-olsa, yuxarıda deyildiyi kimi yalnız metafora-məcaz kimi sufi simvolikasına meyillidirlər. Əsl həqiqətdə isə arxalarında tamamilə başqa məzmun daşıyırlar - böyük sənətin yaranma prosesinin bədii ifadəsidirlər"[1].

Simvol və rəmzlərin yozumlarından danışarkən müəllif Nizaminin "Yeddi gözəl" poemasında "Xeyir və Şər" hekayəsindəki baş qəhrəmanların daşıdığı adların məna simvolu ilə "Mahan haqqında nağıl"dakı rəmzi obrazları səciyyələndirir. Xeyir və Şər hər ikisi adlarına uyğun işlər görmələri ilə yadda qalırlarsa, real və qeyri-real - qüvvələr heybətli, qorxunc, acgöz, həris divlər, ifritlər, əcinnə və qulyabanılar insanın daxilində kök salmış pisliyin, şərin, əhrimənin təcəssümüdür. Bu qüvvələr romantik təxəyyüldə cisimləşmiş, obraz-rəmzlərə dönmüşdür: "Nizaminin mətnlərində məna-məzmun rəmzləri ilə bərabər obraz-rəmz, obraz-simvollara da çox təsadüf etmək olar. Əslində şairin abidəsini əbədiləşdirdiyi ideal və antiideal qəhrəmanların hər biri obraz-rəmz , obraz-məcaz məqamlarındadır"[2].

Nizami irsinin tədqiqatçılarından olan professor Nüşabə Araslının "Nizaminin poetikası" adlı monoqrafiyasında alleqoriya problematikası ilə bağlı elmi – nəzəri düşüncələri, dahi şairin bədii təsvir, rəmz, metafora dünyasına saldığı işıq bizim araşdırmamız üçün də xeyli material verir. Metaforik-rəmzi təsvirlərdə şairin daha çox istiarə, kinayə, eyham və bu qəbil fiqurlara müraciətini əsaslandıraraq Nüşabə Araslı yazır: "Müqayisəli və assosiativ xarakterli təsvirlərdə isə təşbih, tənsiqüs-sifat, siyaqətül-ədəd, cəmü təfriq və başqa fiqurlar nisbətən daha çox işlənir, emosional şişirtmədə mübaliğə, təbliğ, iğraq və qüluvvə əsaslanıldığı halda, fikrin dəlillərlə təqdimində hüsni-təlil, irsali-məsəl, təlmih, bəraəti-istehlala daha artıq müraciət edilir. Poetik simmetriyanın isə daha çox tərsi, rəddül-əcz əla-s-sədr, rəddül-sədr əla-l-əcz, ləffü nəşr, müraatün-nəzir, tərdi-əks və başqa bu kimi fiqurlardan istifadə yolu ilə yarandığını görürük"[3].

---

[1] Rüstəmova A. "Xəmsə"də alleqoriya, rəmz və simvollar . Ədəbiyyat qəzeti, Bakı, 1991, 27 sentyabr.

[2] Rüstəmova A. "Xəmsə"də alleqoriya, rəmz və simvollar. Ədəbiyyat qəzeti. Bakı: 1991, 27 sentyabr.

[3] Araslı N. Nizami poetikası. Bakı: Azərbaycan SSR EA–nın nəşriyyatı, 1947, s. 164.

Nizaminin yaradıcılığında alleqoriyanın bütövlükdə funksiyasını, məna və mündəricəsini, simvol və rəmzlər dünyasını ehtiva edən "Yeddi gözəl" bizim araşdırmamız üçün son dərəcə gərəkli material verir. Belə ki, poemanın kompozisiya-quruluşu, obrazlar, məkan və xarakterlər aləmi ümumi şəkildə abstrakt-mücərrəd anlayışlarla bağlıdır. Əsərin adından etibarən yeddi rəqəmi öz simvolik-poetik gözəlliyi, fəlsəfi-elmi çalarları ilə poemanın məzmunu, süjeti və mündəricəsi ilə üzvi vəhdət təşkil edir. Həftənin yeddi günü, yeddi gümbəzli qəsr, yeddi rəng, yeddi ölkə gözəllərinin söylədikləri yeddi hekayə və s. bu cəhətdən xüsusilə maraqlıdır. "Yeddi gözəl" rəmzi yeddilik rəmzi insan obrazları, rəmzi hadisələr və əhvalatlarla sıx bağlıdır. Nizami bədii təfəkkürünün təcəssümü olan ədalətli şah, ideal insan surətləri və əslində dahi şairin fəlsəfi, əxlaqi fikirlərinin cəmiyyət-insan anlayışları ilə bağlı görüşlərinin poetik təcəssümü bu əsərdə demək olar ki, bütövlükdə alleqoriyanın məcaz-metafora rəngləri ilə ortaya çıxır. Bəhram Gur - bu ad özü-özlüyündə simvolik xarakter daşıyır. Bəhram (farsca) - Mərrix (ərəbcə) qan, müharibə tanrısı mənalarını verir. Gur (farsca) - gor, qəbir mənası daşıyır. Əsərin sonunda Bəhramın ov dalınca mağaraya girib ordan yoxa çıxmasını şair gora-qəbrə getməsi kimi mənalandırır. Qeyd edək ki, Bəhramın yoxa çıxdığı həmin mağara elə rəmzi şəkildə qəbrin təcəssümüdür. Maraqlıdır ki, əsərin baş qəhrəmanını müsbət insan kimi dəyişməsindən sonra müəllif onu yoxa çıxarır. Halbuki Nizami estetikası üçün mənfi obrazların dəyişməsi, zülmkar, ədalətsiz şahların nəsihət və məhəbbət yolu ilə tərbiyələnməsi pirioritet olduğu halda bu əsərdə vəziyyət tamam başqalaşır. Demək Bəhram Gur - bir şah, bir gənc olaraq müsbət tərəfə dəyişəndən sonra artıq mövcud cəmiyyətin insanı deyildir. Nizami Gəncəvi yaradıcılığının romantik pafosu burada alleqoriyanın abstrakt-məcazi funksiyası ilə birləşir. Nəzərə alsaq ki, Bəhramın tərbiyələnməsi, onun müsbət xarakter alması özü də bir növ təmsili hekayətlərin və onları söyləyən yeddi rəngli, yeddi ölkənin gözəli olan qızların söhbətlərindən sonra baş verir, o zaman "Yeddi gözəl" poemasını məzmun və mündəricəsindəki məcazi-simvolik ifadə tərzi tamamilə aydınlaşmış olar. Nizami Gəncəvinin dünyagörüşündəki humanizm, renessans əhval-ruhiyyəsi bütün tədqiqatçıların diqqət mərkəzində olmuş və bu cəhət kifayət qədər araşdırılmışdır. Biz də bu paraqrafda mövcud tədqiqatlara dayanaraq dahi şairin yaradıcılığında məhz alleqoriyanın humanist mövqeyini, ədalətli cəmiyyət, bu cəmiyyətin doğurduğu insan xarakterlərini diqqət mərkəzinə çəkmək istəmişik. Əgər "Sirlər xəzinəsi"ndə "quş dili" bilən vəzirin köməyi ilə bayquşların söhbətini dinləyən Nuşirəvan əməllərini yada salaraq xəcalət çəkib peşman olursa, "Yeddi gözəl"də canlı insanların ibrətamiz hekayətlərindən nəsihətlənən və dəyişən Bəhram gələcək şahlıq həyatında bunlardan istifadə

edə bilmir. Deməк müəllif üçün bu hekayətlər və onların süjet xətti, eləcə də oradakı obrazlar-xarakterlər özü də simvolik-rəmzi mahiyyət daşıyır. Bu hekayələrdə çoban, Fitnə və məhbusların timsalında ideal insan anlayışları ortaya qoyulur.

Professor Mir Cəlal Paşayev "Yeddi gözəl"dəki hekayətlər haqqında" məqaləsi də mövzumuzla bağlı maraqlıdır. Görkəmli alim yazır: "Nizami hekayəsinin qüvvətli cəhəti orasındadır ki, burada Xeyir öz-özünə və hər zaman qalib və xoşbəxt olan bir qüvvə kimi verilmir. Xeyirin səadəti "hökmi-əzələ" bağlanmır. Hekayədən aydın olur ki, səadət timsalı olan Xeyir özü fəlakətə düşə bilərmiş... Bu hekayədə Xeyir yalnız ümumi mənalı bir simvol yox, həqiqi, canlı bir insandır[1].

N.Gəncəvinin "Xəmsə"sindəki bütün əsərlərdə sözün zahiri mənasının arxasında, batinində böyük bəşəri amalların, humanist ideyaların gizləndiyi sirr deyil.

Şairin "Yeddi gözəl" poeması adından başlayaraq, demək olar ki, simvol – rəmzlər arxasından dərin məzmun, hikmət və fəzilətlər cilvələnir. Zahirən tarixdən alınmış mövzu və qəhrəmanlar əslində müəllif fikrinin batini mənasını və mahiyyətini özündə ehtiva edir. Əslində, şairin bədii təxəyyülü və ədəbi–fəlsəfi düşüncə, beytlər, misralar və söz gözəlinin örtüyü altında – xəzinə içində cilvələnir.

Nəhayət, deyə bilərik ki, alleqoriya problematikası Nizami yaradıcılığında xüsusi bir mövzudur. Biz də özümüzdən əvvəlki müəlliflərin axtarışlarından bəhrələnərək, onların elmi qənaətlərinə istinadla Nizaminin yaradıcılığında alleqoriyanın bir bədii kateqoriya qismində rolunu müəyyənləşdirməyə çalışmışıq.

Bu fəslin **"XIII–XVI əsrlər Azərbaycan ədəbiyyatında alleqoriya"** adlanan dördüncü bölməsində özündən əvvəlki bölmələrdə qoyulan fikirləri davam etdirməklə anadilli poeziyamızda meydana çıxan alleqorik əsərlərin ideya – sənətkarlıq xüsusiyyətlərindən bəhs açılır.

Bilirik ki, Azərbaycan ədəbiyyatının növbəti mərhələsində XIII-XVI əsrlər klassik Azərbaycan ədəbiyyatında yaranan anadilli ədəbi nümunələr sırasında alleqoriya ənənənəsi də Nizami Gəncəvinin yaradıcılığı ilə ruhən səsləşir. Anadilli şerimiz olmaqla seçilən bu dövr ədəbiyyatında fikir və ideya ilə yanaşı bədii obrazlar, poetik fiqurlar özündən əvvəlki klassik şeir nümunələrindən fərqlənir.

---

[1] Paşayev M.C. Nizaminin "Yeddi gözəl"indəki hekayələr haqqında (Nizami Gəncəvi məqalələr məcmuəsi). Bakı: Azərbaycan SSR EA – nın Nəşriyyatı, 1947, s. 72.

XIV əsr Azərbaycan şairi Qazi Bürhanəddinin qəzəl, tuyuq və rübailərində bədii təsvir vasitəsi kimi işlənən məcazlar anadilli şeirimiz üçün diqqətəlayiqdir. Burada artıq Həsənoğlu qəzəlindəki fəlsəfi fikir və qəliz poeziya dili nisbətən yüngülləşir, ilk anadilli şeirimizin mükəmməl nümunəsi olaraq ortaya çıxır.

Əvhədi bu əsəri Sultan Əbu Səid Bahadır xana ithaf etmişdir. Didaktik üslubda yazılmış bu fəlsəfi-əxlaqi poemada bir tərəfdən məşhur sufi şairi Sənainin (-1180) "Hədiqətül-həqaiq" əsərinin, digər tərəfdən Nizami Gəncəvinin "Sirlər xəzinəsi"in təsiri duyulur. Nizaminin təsiri Əvhədi yaradıcılığına qabaqcıl ictimai fikirlər, zülmə qarşı etiraz motivlərində özünü göstərirsə sufi şairi Sənai onun yaradıcılığına mistik-motivlər gətirmişdir. Əvhədi əsərin adını belə izah edir ki, Cəmşidin məşhur əfsanəvi camı kimi, bu əsər də oxuculara bütün dünyanın işlərini göstərəcək və onlara tükənməz zövq verəcək.

Rəmzi-simvolik məna daşıyan əsərlərdən biri də bu dövrlərdə yaranan XIII əsrin sonu, XIV əsrin əvvəllərində yaşamış Marağalı Əvhədinin "Cami-Cəm" poemasıdır. "Cami-Cəm"də zamanə şahları ədalətə, mərhəmətə çağrılır, insanlara müsbət hisslər təlqin olunur. Nizami ideyaları, onun janr və sənətkarlıq xüsusiyyətləri Əvhədi yaradıcılığında özünü göstərir. Lakin dini-mistik meyllər, sufizm ideyaları da bu dövrdə bədii əsərlərdə öz ifadəsini tapırdı.

"Cami-Cəm" də yeri gəlmişkən söylənilən hekayətlər, təmsillər və əhvalatlar sırf simvolik fiqurları da özündə ehtiva edir. Burada rast gəldiyimiz simvolik obrazlar həyati-real öyüd-nəsihətləri, eləcə də ürfani görüşləri, sufi-panteist fəlsəfəni, dini əxlaqı və bundan doğan ənənəvi ayinləri poetik şəkildə tərənnüm etdiyindəndir ki, əsər bədii məndəricəsi və dili ilə bizim araşdırmanın tədqiqat istiqamətinə xeyli material verir.

Alleqorik ad və məzmun "Dəhnamə" əsəri üçün də xarakterikdir. Şərq ədəbiyyatında ənənəvi məhəbbət mövzusuna həsr edilmiş, dünyəvi məhəbbəti tərənnüm edən müqəddimədən və on məktubdan ibarət olan bu əsər öz əxlaqi məzmunu ilə diqqəti cəlb edir. Əsərdə aşiqin bir gözələ vurulmasından və məhəbbət yolunda keçirdiyi iztirablardan danışılır. Aşiq "badi-səba"ya müraciətlə ürəyinin dərdini, məhəbbətini sevgilisinə aparmasını arzulayır, istəyir, dərdinə dərman arayır. "Mənim gizli dərdimin dərmanı səndədir, təbibim də sənsən" - deyir. Məşuqun aşiqə etinasızlığı onu sınaqdan çıxarmaq üçün idi. Bu məqamlarda aşiqlərin arzularına çatmaqları onların məhəbbət yolunda mübariz və təmkinli olması ilə izah edilir. Məşuq öz aşiqini sınaqlardan keçirəndən sonra məktub vasitəsi ilə öz razılığını bildirir. Göründüyü kimi, çox sadə və ibtidai kompozisiya və süjet daxilində

cərəyan edən məzmun aşiqlərin bir-birinə məktub vasitəsi ilə qovuşması ilə nəticələnir. Maraqlıdır ki, “Dəhnamə”də şairə çox doğma olan dini-mistik meyllər özünü göstərmir. Burada dünyəvi məhəbbət, vüsal səadəti, epik məktublar, lirik ricətlərlə müşayiət edilir, başlıca vasitəçi yenə də alleqorik obrazlardır.

Əvhədi yaradıcılığını fundamental şəkildə araşdıran mərhum alimimiz Qulamhüseyn Beqdeli onun lirikasındakı bədii təsvir vasitələrinin özəlliklərindən danışarkən yazırdı:

“Əvhədi təşbih, kinayə, təriz, mübaliğə, istiarə və başqa bədii təsvir vasitələrindən bacarıqla istifadə edən bir sənətkardır. O, şerlərində Şərq poetikasının bütün növlərindən, xüsusilə bədii təzadlardan, təşbihlərdən, təşxis, təkrir və atalar sözlərindən yerli – yerində və çox ustalıqla istifadə etmişdir. Əvhədinin şerlərində tətbiq olunan bədii təsvir vasitələrinin çoxunu təzad təşkil edir. Şairin qəzəllərində təşxis və nitqləndirmələrə də xüsusi yer verilmişdir. Məsələn, bir beytdə üzüm belə şəxsləndirir”.

“Mənim canım şərab ilə dirildi; ona görə də onu çox yad edirəm. Əgər üzüm minnət qoysa, onu diri – diri dara çəkərəm. Canamaz mane olsa, dərhal onu satıb şərab alaram, təsbih zəhmət versə, onu zünnar edərəm.

Şair bu beytdə üzümü şəxsləndirmişdir. Şübhəsiz ki, minnət qoymaq ancaq şəxsə aiddir”[1].

Alleqorik-simvolik obraz və düşüncə baxımından bizi maraqlandıran əsərlər sırasında bu dövr incilərindən hesab olunan “Cami – Cəm” xüsusi tədqiqatını gözləyir.

Orta əsrlər Azərbaycan epik şeirində Şərq və dünya ədəbiyyatından da səmərəli bəhrələnmənin şahidi oluruq. Bu baxımdan qədim Hind ədəbiyyatının özünəməxsus yerini də qeyd etmək lazımdır. İlk mənbəyi "Şukasaptaşti" adlanan Hind folklor ədəbi abidəsi sayılan "Tutunamə"dəki didaktik nəsihətamiz hekayələrdə də alleqoriyadan istifadə olunmuşdur. Bu hekayələrdə heyvanların dili ilə ibrətamiz fikirlər söylənilir, insanlara nəsihət verilir. Məlumdur ki, "Tutunamə" çox qədimlərdən bir sıra dünya dillərinə, o cümlədən Azərbaycan dilinə də tərcümə edilmişdir. Azərbaycan ədəbiyyatında "Tutunamə" mövzusunda yazan müəlliflər sırasında Möhsün Nəsiri eyni adlı əsərində belə bir qənaətə gəlir ki, aqil və kamil o şəxslərdir ki, heyvanların dilindən verilən təmsilləri anlasın, onlardan faydalansın, ib-

---

[1] Beqdeli Q. Əvhədi. Bakı: Azərbaycan SSR EA Nəşriyyatı, 1962, s. 131

rətlənsin, lap, dilsiz-ağızsız, şüursuz heyvanatdan, quşlardan tərbiyə alsın, nümunə götürsün.

Əxlaqi-didaktik xarakteri bu alleqorik əsərin, adından da göründüyü kimi, baş qəhrəmanı Tutidir və hekayələr onun dilindən verilir. Tuti insanlara düzgün, ağıllı yol göstərən, faydalı nəsihətlər təlqin edən bir naseh timsalındadır. Alleqorik obrazlar və alleqorik məzmun daxilində işlənmiş hekayələrdə müəllif öz dövrü və zamanı üçün cəsarətli, həm də deyilməsi vacib olan tənqidi fikirlərini dilə gətirmişdir. Bu cəhəti diqqətə çatdırarkən hörmətli alimimiz Ə.Səfərli yazır: "Möhsün Nəsiri alleqoriyadan istifadə etməklə daha cəsarətli fikirlər irəli sürməyə imkan tapır; öz qənaət və düşüncələrini münasib bir formada və üsulda canlandırır. Onun hər hansı bir alleqorik hekayəsində həyati, dünyəvi bir məzmun, bəşəri bir qayə və arzu gizlənmişdir"[1].

Alim alleqoriyanın bədii əsərlərdə daşıdığı funksiyanı dəqiqliklə ortaya çıxarmaqla onun Möhsün Nəsiri yaradıcılığında - hekayə janrında xüsusi yerini göstərir.

Araşdırma nəticəsində gördük ki, XV-XVI əsrlərin alleqoriya örnəkləri özündən sonrakı ədəbi nümunələrdə artıq real həyatla, dünyəvi ideyalarla daha çox səsləşir, cəmiyyət və insan problemlərinə bağlılıq öz geniş bədii ifadəsini tapır. Məcazi düşüncə tərzi mistikadan, dini – etikad təlqinindən, simvollardan, ideal, mücərrədlikdən konkret, məlum bəşəri problemlərin həllinə yönəlir, buradakı şərti-metaforik obrazlar, süjet və məzmun, ideya və kompozisiya sadəliyi və kütləviliyi, anlaşıqlılığı ilə seçilir. Janr baxımdan isə təmsil ön plana keçir və bir qayda olaraq zəmanəmizə qədər həmin ideya-estetik mahiyyəti özü ilə daşıyır.

Araşdırma nəticəsində gördük ki, XV-XVI əsrlərin alleqoriya örnəkləri özündən sonrakı ədəbi nümunələrdə artıq real həyatla, dünyəvi ideyalarla daha çox səsləşir, cəmiyyət və insan problemlərinə bağlılıq öz geniş bədii ifadəsini tapır. Məcazi düşüncə tərzi mistikadan, dini – etikad təlqinindən, simvollardan konkretliyə – məlum bəşəri problemlərin həllinə yönəlir, buradakı şərti-metaforik obrazlar, süjet və məzmun, ideya və kompozisiya sadəliyi və kütləviliyi, anlaşıqlılığı ilə seçilir. Janr baxımdan isə təmsil ön plana keçir və bir qayda olaraq zəmanəmizə qədər həmin ideya-estetik mahiyyəti özü ilə daşıyır.

---

[1] Qədim və orta əsrlər Azərbaycan ədəbiyyatı. Bakı: Maarif, 1982, s. 50

Sözü gedən bölmədə Qazi Bürhanəddin, Əssar Təbrizi kimi Orta əsrlar klassiklərimizin yaradıcılığı ətrafında da alleqoriyanın özəl xüsusiyyətləri haqqında mülahizələrimizi yürütmüşük.

Bu fəslin **"Bu dövr hürufi poeziyasında alleqoriyanın ideya – estetik mövqeyi və funksiyası"** adlanan beşinci bölməsində Azərbaycan klassik poeziyasının ən mürəkkəb və ziddiyyətli dövrü təhlilə cəlb olunur.

Hürufizmdəki alleqoriya məsələlərindən söz açarkən Fəzlullah Nəimi ön plana çəkilir.

Ümumən deyə bilərik ki, Şərq ədəbiyyatında, o cümlədən XV–XVI əsrlər Azərbaycan ədəbiyyatında da alleqorik fikir, ideya və məcazi məna, mahiyyət daşıyan təmsili surətlər, simvol–rəmzlər bütövlükdə sufi-panteist estetikasının və ruhunun təcəssümü olaraq ortaya çıxmış və uzun müddət təsir və nüfuzunu saxlamışdır.

Bu bölmədə Nəsimi yaradıcılığı hürufilik görüşlərinin əsasında alleqoriyanın məcazi – metaforik çözümləri tədqiq edilir.

Nəsimi yaradıcılığında bir leytmotiv kimi səslənən, dahi şairin fəlsəfi-bədii fikir fəzasının proqram prinsipi qismində qəbul oluna bilən "Quş dilidir" ifadəsi tədqiqat işimizdə "Ezop dili" ilə müqayisəyə gətirilmiş, qarşılaşdırmalar aparılmışdır.

O da məlumdur ki, "Quş dili" ifadəsi əfsanəvi Süleyman peyğəmbərlə bağlıdır və klassik ədəbiyyata da Qurani-Kərimdən keçmişdir.

Bu "Quş dili" klassik ədəbiyyatımızda ənənvi şəkildə özünə yer alaraq, Yaxın Şərq ədəbiyyatında mücərrəd, eyhamlı, dərin və üstüörtülü söz – fikir mənalarını özündə cəmləşmişdir. Nəsimidə quş dili hürufilik ideyalarının bəzi islam ehkamları əleyhinə yönəldilmiş fikirlərini söyləyərkən də istifadə olunmuşdur. O, şeirində görünən, zahiri mənalardan savayı "özgə bir lisanla" səslənən fikirlər, mülahizələr olduğunu anladırdı:

Sən bu Nəsiminin dilini anla, bil sözün
Kim, var bu dildən özgə bizim bir lisanımız[1].

Hürifilərin mürşidi olan və ilahi dərəcəyə yüksəldilən Fəzlullahın elminin "quş dili" ilə ifadə edilməsi və bu dilin tərcüməyə gəlməməsi onun rəmzlərdən yaranması ilə izah edilirdi. Bu barədə mərhum alimimiz Məmmədəli Əsgərovun Nəsiminin «İraq divanı»ndakı[2] şərh və izahlarından bəzi məqamları diqqətə çəkməyi münasib bildik.

---

[1] İmadəddin Nəsimi. İraq divanı. Bakı: Yazıçı,. 1987, s. 204.
[2] Yenə orada, s. 293.

Bütövlükdə klassik poeziyada, eləcə də Nəsimidə sufi-alleqoriyası qismində təfsir olunan poetik fiqurlar bəzən çoxqatlı mənalardan ayrılaraq bədii lövhə təsviri və obrazlı ifadə formasına keçə bilir.

Nəsimidən sonra klassik şeirimizdə yaranan ədəbi nümunələr içərisində istər mövzu-mündəricə, istərsə bədii kompozisiya, rəmz-metafora, alleqorik obraz və təsvir vasitələri özündən sonrakı ənənə üzərində yetişmiş, eləcə də yeri düşdükcə orijinal alleqorik təhkiyə və bədii obrazlar meydana çıxmışdır. Biz də XV-XVI əsr klassik şeirimizin uyğun nümunələri üzərində dayanmaqla alleqoriyanın bədii-estetik, fəlsəfi-ürfani, etik-didaktik xüsusiyyətlərini araşdırmağa çalışmışıq.

Dissertasiyanın IV fəsli **"Orta əsrlər Azərbaycan ədəbiyyatında alleqoriya sənətinin Füzuli mərhələsi"** adlanır.

Bu fəsil bütövlükdə Məhəmməd Füzulinin yaradıcılığında vacib yer tutan alleqoriya problematikasına həsr olunmuşdur. Fəsil dörd bölmədən ibarətdir. Bölmələrə keçməzdən əvvəl XIII–XIV yüzilliklərdəki Azərbaycan poeziya mühitində meydana çıxan alleqoriya nümunələrinə müxtəsər baxış təqdim olunur.

Bu fəslin **"Füzuli dövrü ərəfəsində lirik şerimizdə alleqoriya"** adlanan birinci bölməsində Kişvəri, Həbibi, Xəlifə Təbrizi, Süruri, Şahi, Fəzli, Rəhmətulla Təbrizi kimi şairlərin yaradıcılığı alleqoriya baxımından müxtəsər izlənilir. Qeyd edək ki, bu sənətkarlar alleqoriyadan bədii təsvir vasitəsi kimi faydalanmış, əsasən məcaz–metafora nümunələri yaratmışlar.

Fəslin **"Məhəmməd Füzulinin alleqoriya yaradıcılığı ilə bağlı tədqiqlərə müxtəsər baxış" adlanan** ikinci bölməsi "Məhəmməd Füzulinin alleqoriya yaradıcılığı ilə bağlı tədqiqata müxtəsər baxış" adlanır.

Ümumən Orta əsrlər Azərbaycan ədiblərinin yaradıcılığında alleqoriyanın bir kateqoriya kimi öyrənilməsindən alleqorik əsərlərin tədqiqi və araşdırılmasından danışarkən bu dövr klassik poeziya nümayəndələrimiz sırasında Məhəmməd Füzuli haqqında daha və ətraflı geniş söhbət açılmışdır.

Orta əsrlər təzkirəçi alimlərdən başlayaraq Qərbi Avropa, rus, eləcə də türk, özbək, Azərbaycan ədəbiyyatşünaslığında Füzulinin alleqoriya yaradıcılığı ətrafında mövcud tədqiqlər diqqətə çatdırılır və müvafiq olaraq münasibət bildirilir.

Şairin alleqoriyaları haqqında ilk məlumatı Orta əsr təzkirəçilərindən alırıq. Təzkirəşi alimlərdən Alinin "Künhül – Əxbar" (1593 – 1597), Sadiqinin "Məcməul – xəvas" (1598) və Mirzə Tahir Nəsrabadinin "Təzkireyi – Nəsrabadi" (hicri – 1324) əsərlərində şairin alleqoriyalarından "Bəngü Badə" və "Səhhət və Mərəz"in adı çəkilir.

Füzuli alleqoriyalarının Qərbi Avropa, rus, eləcə də türk, özbək və Azərbaycan ədəbiyyatşünaslığında fundamental şəkildə öyrənilməsi tarixi XIX əsrdən hesablanır.

Qərbi Avropada Füzulidən ilk dəfə bəhs açan alim Hammer Purqştall, məşhur ingilis şərqşünası Gibb, görkəmli rus alimi Y.E.Bertels, eləcə də Füzulinin Azərbaycan tədqiqatçılarından Həmid Araslı, Mirzağa Quluzadə, Mir Cəlal Paşayev, Azadə Rüstəmova və digərləri tərəfindən yazılmış əsərlərə müraciət etmişik. Burada bir məsələni də qeyd etməyi zəruri bilirik. 1989–cu ildə çapdan çıxan "Füzulinin gizli sözü" adlı monoqrafiyamızdan da müvafiq məqamlarda sitatlar gətirmişik. Odur ki, mövcud işimizdə bu barədə beləcə xülasə ilə fikrimizi yekunlaşdırmaq istərdik.

Bu fəslin **"Məhəmməd Füzuli lirikasında bədii təsvir vasitələri, məcaz – metafora sistemi"** adlanan bölməsində M.Füzulinin lirik şerlərində xüsusilə diqqət çəkən simvol – rəmzlərə, bədii təsvir vasitələrinə, poetik fiqurların təhlil və izahına yer verilmişdir. Hissi – emosional, ruhi – mənəvi anlayışların təcəssümü olan qəm, kədər, möhnət, bəla kimi alleqorik obrazlar şairin bütövlükdə yaradıcılıq stixiyası üçün önəmlidir. Əsl səadətin, aqilliyin, müdrikliyin yolunun da məhz qəmdən keçdiyinə inanan şair bütün yaradıcılığı boyu bu həqiqəti təlqin və təsdiq etməyə çalışmışdır.

Əslində Qəm arzuolunmaz bir haldır, lakin Füzuli estetikasına görə bunsuz həyat yoxdur. Şairə görə qəmin oğurlanması, itməsi, yox olması aşiq üçün daha artıq bəladır, zülmdür, bəlkə də işgəncədir. Çünki qəm özü eşqin daşıyıcısıdır, cəfakeşidir. Bu məqamda şairin məşhur beytlərindən birini xatırtlatmaq kifayətdir:

Qəm oğurlar eşq bazarında nəqdi – ömrümü,
Qılmaq olmaz sud sövdadə yaman ortağilən[1]

Bəzi abstrakt anlayışlar kimi Qəm də Füzulinin poetik təsvirlərində metaforik fiqur kimi təqdim edilir. Qəm bir bədii qəhrəman qismində şairin nəzərdə tutduğu aşiqin sevda aləmində ortağı olmuşdur. Poetik təxəyyülün nəticəsi olan bu düşüncə tərzi dahi sənətkarın bütövlükdə ədəbi irsi üçün səciyyəvidir. "Qəm" lirik qəhrəman qismində şəxsləndirilərək Aşiq–Eşq anlayışları ilə vəhdətdə götürülür.

---

[1] Füzuli M. Əsərləri Beş cilddə. I cild. Bakı: Az SSR EA Nəşriyyatı, 1958, s. 274.

Deməliyik ki, Eşq, Hicran, Vüsal, Hüsn, Kədər, Ölüm, Bəqa, Fəna və s. bədii surətlər də bu cəhətdən önəmlidir. Füzuli bədii-estetik dilində, düşüncə və təfəkküründə (ümumən və əslində klassik poeziyamızda) həm keyfiyyət, həm məzmun, həm də kəmiyyətcə olduqca yüyürək, işlək, ənənəvi ifadə olan "Qəm"ə şairin yaradıcılığında tez – tez rast gəlirik:

Mənəm ki, qafiləsalari-karivani-ğəməm,
Müsafiri-rəhi-səhrayi-möhnətü ələməm[1].

Göründüyü kimi, Füzuli, nə az-nə çox, məsələni məhz belə qoyur və "aşiqi-sadiq"likdən cünunluğa doğru ağır, iztirablı bir yol keçən qəhrəmanın (bəlkə də şair taleyinin) tarixi-poetik missiyasını məhz belə müəyyənləşdirir, karivani-qəmin başçısı!

Yeri gəlmişkən onu da xatırladaq ki, nümunə olaraq gətirdiyimiz parçada, istər ictimai – sosial, fəlsəfi – tarixi yöndən olsun, istərsə lirik – aşiqanə hislərin tərənnümü olsun, fərq etməz, Füzuli qələmi hər zaman məcazi ifadələrin mətnaltı mənaların, gizli mətləblərin poetik dillə ifadəsi ilə danışır. Elə bu səbəbdən şairin işlətdiyi söz və ifadələr, bunların ehtiva etdikləri hər zaman xüsusi açıqlama, təhlil obyektidir. Əslində dahi şairimizin bütövlükdə sənət dünyası məhz belə poetik fiqur, simvol – rəmz, məcazi – metaforik təsvirlərlə müzəyyəndir.

Onu da deyək ki, şairin böyük kədəri qədərincə də böyük eşqi var. Eşq bir obraz kimi Füzuli leksikonunda müxtəlif məqamlarda müxtəlif şəkildə cilvələnə bilər. Bu, demək olar ki, bir enerjidir, haldır. Lakin bu Füzuli estetikasına görə hər kəsə müyəssər olmayan və hər kəsin anlayıb qavraya bilməyəcəyi Allah vergisidir.

Eşq nagah oldu peyda, tutdu müstəhkəm məni.
Saldı yüz sövdayə ol giysuyi – xəm – dər – xəm məni[2].

Biri digərindən doğan Eşq və Qəm leksik mənaca sinonim olmasalar da, Füzuli şeirinin ruhu və stixiyası, hissi-idraki dərinliyi, fəlsəfi vüsət və psixoloji ovqatı onları öz bətnində metaforik baxımdan ekizləşdirə bilir. Maraqlıdır, şair hətta məhəbbət aləminin ən cəsur və möhtəşəm əzabkeşi olan Qeysi də dünyaya bələd olmazdan qabaq qəmkeş kimi, "qəmin hərifi" kimi gətirir.

---

[1] Füzuli M. Əsərləri Beş cilddə. I cild. Bakı: Az SSR EA Nəşriyyatı, 1958, s. 353.

[2] Yenə orada, s. 349.

Gəldim ki, olam qəmin hərifi,
Gəl təcrübə eylə mən zəifi![1]

Biz müvafiq bölmədə şairin olum – ölüm, bəqa – fəna anlayışları ilə bağlı poetik düşüncələrini lirik şeirləri, o cümlədən “Leyli və Məcnun” poeması əsasında incələməyə çalışmışıq. Nəticə olaraq deyə bilərik ki, şairin alleqoriyadan bədii kateqoriya qismində yararlanması bu bölmədə sənətkarlıq məsələləri ilə əlaqəli araşdırılmışdır.

Bəllidir ki, poetik dil, özünün semantik əlvanlığına, semiotik tutumuna görə paradoksal dildir. Bu dildə əksini tapan dərin və ziddiyyətli fikirlər Füzuli yaradıcılığının, xüsusilə onun sufi fəlsəfəsi, panteist düşüncələri ilə təmasda olan qatında daha bariz hiss olunur. Belə ki, məsələn, hər hansı bir anlayışda və ya məfhumda təmərküzləşən rəmz və alleqorik anlam poetik predmetin tələbinə uyğun olaraq özünü hər dəfə yeni bir cilvədə, yeni bir yöndə nümayiş etdirir. Bu mənada Füzuli şeirində "qəmi-eşq", "möhnəti-eşq", "eşq zövqü", "eşq nəşəsi" aralarındakı fərqə - zidiyyətli leksik mənalara baxmayaraq, vahid, bütöv bir rəmz məkanında qəbul edilərsə, bu, Füzuli şeirinin fəlsəfi məntiqinə tamamilə uyğun gələr. Əlbət ki, məcaz – metafora sistemi və onun poetik əlvanlığı nəzərə alınmaqla irəlidə sürülən fikir və qənaətlər dissertasiyada ümumiləşdirilmişdir.

Ümumiyyətlə, Füzuli şeiri və şeiriyyatı, onun qəhrəmanlar və obrazlar aləmi, hətta struktur və kompozisiya texnikası bütünlüklə rəmz və simvollarla, çoxqatlı, çoxyönlü məcazlaşmalarla, alleqorik yozumlarla zəngindir və elə bu cəhətdən də sözügedən məsələyə tədqiqatımızda xüsusi diqqət ayrılmışdır.

Biz müvafiq bölmədə şairin olum – ölüm, bəqa – fəna anlayışları ilə bağlı poetik düşüncələrini lirik şeirləri, o cümlədən “Leyli və Məcnun” poeması əsasında məcazi, alleqorik ifadə və düşüncə yönündən incələməyə çalışmışıq. Nəticə olaraq deyə bilərik ki, şairin alleqoriyadan bədii kateqoriya qismində yararlanması bu paraqrafda sənətkarlıq məsələləri ilə əlaqəli şəkildə öyrənilmişdir..

Ümumiyyətlə, Füzuli şeiri, onun qəhrəmanlar – obrazlar aləmi, hətta struktur və kompozisiyası bütünlüklə rəmz və simvollarla, çoxqatlı, çoxyönlü məcazlaşmalarla, alleqorik yozumlarla olduqca zəngindir.

---

[1] Yenə orada, s. 51.

Tədqiqat işində təhlil olunan səciyyəvi poetik nümunələr bizə bunu deməyə əsas verir ki, dahi şair müşahidə etdiyi təbiət və cəmiyyət problemlərini, heyvanat, cəmadat, kainat, bitkilər aləminin sirlərini, bunların xarakterik xüsusiyyətlərini obrazlı təfəkkür süzgəcindən keçirərək simvol – rəmzlərdən möhtəşəm bir təbiət, kainat və cəmiyyət alleqoriyası yaratmışdır.

Nəhayət, təhlil və incələmələrdən gəldiyimiz qənaətə görə deyə bilərik ki, orta əsr klassik şeiri üçün məqbul və ənənəvi sayılan ədəbi priyom və bədii məntiq daxilində Füzuli yaradıcılığında eşq, gözəllik, həyat, ölüm, bəqa və fəna kimi fəlsəfi – estetik kateqoriyalar da mövcud cəmiyyətin problemlərini məcazi sözün poetik örtüyü arxasından cilvələndirir.

Bu fəslin **“Məhəmməd Füzulinin sırf alleqorik səpgidə yazdığı silsilə əsərlər üzərində təhlil və ümumiləşdirmələr”** bölməsində təhlillər əsasən iki istiqamətdə aparılır:

1) bədii təsvir, bəzək vasitəsi qismində,

2) alleqorik səpgidə yazılmış süjetli əsərlərdə alleqoriyanın mövzu, ideya, kompozisiya baxımından mövqeyi və bunlarda alleqorik ifadə tərzinin bir kateqoriya kimi işlənməsi.

Alleqoriya problematikası ilə bağlı, onun sənətkarlıq məsələləri, bədii fikrin süjet və kompozisiya daxilində həlli, məcazi–metaforik fiqurların Füzuli yaradıcılığında özəlliklərini fundamental şəkildə aşkarlamaqdan ötrü “Bəngü Badə”, “Söhbətül əsmar”, “Saqinamə”, “Səhhət və Mərəz” kimi silsilə alleqorik əsərlərinin təhlil və tədqiqinə xüsusi yer verməklə bu bədii yaradıcılıq sahəsinə ayrıca bir hissə açmağa ehtiyac duymuşuq.

Onu da deyək ki, Füzulinin nəsr yaradıcılığı da ədəbiyyatımız üçün alleqorik ifadə baxımından orijinal və maraqlıdır. Şairin nəsr sahəsindəki istedad və bacarığı farsca yazılmış “Səhhət və Mərəz”ində, həmçinin “Şikayətnamə”sində tamamilə yeni bir planda mövzu – ideya axarında təcəssüm tapır.

Məhəmməd Füzulinin “Həft cam” əsərindən danışarkən akademik Həmid Araslının Nizaminin “Həft peykəri” poeması ilə Füzulinin “Həft cam”ının müqayisəsi haqqında məlum fikirlərini xatırlamağı münasib bildik. Bu əsərləri ilk dəfə müqayisəli şəkildə təhlilə gətirən alim göstərirdi ki, Füzuli bu əsərində öz sələfi Nizaminin “Yeddi gözəl”ini “təqlid” etmişdir. H.Araslı onu da bildirmişdir ki, əsərdə Xəyyam ruhu duyulur. Həmçinin,

Nizami əsərində olduğu kimi Füzulinin "Yeddi cam"ı da astronomik sistemə əsaslanmışdır[1].

Füzuli alleqoriyalarında bağ və bostan ("Söhbətül əsmar"), şərabla tiryəkin məclisləri ("Bəngü Badə"), musiqi və işrət gecələri ("Həft cam"), insan bədəni və ruhlar aləmi ("Səhhət və Mərəz") hadisələrin cərəyan etdiyi məkan kimi obyektləşir. Təbiət, nəbatat meyvə və tərəvəz, müxtəlif uyuşdurucular və içkilər, çeşidli süfrə təamları və çərəz, çalğı alətləri və şərab camları, bədənin daxili və xarici üzvləri, insanın ruhi – mənəvi aləmi ilə bağlı elmi bilgilər və mücərrəd anlayışlar bədii obrazlar timsalında təqdim olunur. Insan cəmiyyətinə xas olan xarakterik xüsusiyyətlər həmin şərti surətlərdə onların hərəkət və nitqlərində canlandırılır.

Yekun olaraq deyə bilərik ki, klassik Azərbaycan ədəbiyyatında alleqoriya Füzuli sənətində bir stixiya olaraq fundamental şəkildə ortaya çıxdı, yüksək mövqe qazandı. Fəlsəfi, estetik, etik-didaktik, elmi, irfani, lirik-aşiqanə mahiyyət və məzmun daşımasından asılı olmayaraq bu əsərlərin hamısını əminliklə deyə bilərik ki, yüksək bədii dil və bənzərsiz sənətkar təfəkkürü birləşdirir. Füzuli lirikada olduğu kimi alleqoriyada da ustad zirvəsinə çatdı.

Şairin lirik–psixoloji ovqata köklənmiş şeriyyətində ilk baxışda real, zahirən məlum olan konkret anlayışlardan söhbət açıldığı düşünülsə də, əslində bunların hərəsi özündə daha böyük dərin mətnaltı mənalar gizlədir. Böyük sənətkar elmi, fəlsəfi, mistik, yaxud həyati, dünyəvi xarakter daşıyan obrazlı düşüncənin pərdə arxasından inikasını məhz rəmzi – metaforik fiqurlar vasitəsilə canlandırmağı bacarmışdır.

Altı yüz illik bir tarixə malik klassik anadilli şeirimizdə alleqoriya sahəsində Məhəmməd Füzulinin bu istiqamətdə yaratdığı əsərləri istər janr, kompozisiya-struktur, istərsə də üslubi baxımdan tədqiqata geniş meydan açır və səciyyəvi material verir. Beləliklə deyə bilərik ki, klassik Azərbaycan ədəbiyyatında alleqoriya Füzuli sənətində bir stixiya olaraq fundamental şəkildə ortaya çıxdı, yüksək mövqe qazandı. Fəlsəfi, estetik, etik-didaktik, elmi, ürfani, lirik-aşiqanə mahiyyət və məzmun daşımasından asılı olmayaraq bu əsərlərin hamısını yüksək bədii dil və bənzərsiz sənətkar təfəkkürü birləşdirir. Füzuli şerdə olduğu kimi alleqoriyada da ustad oldu.

---

[1] Araslı H. Nizaminin "Yeddi gözəl" və Füzulinin "Yeddi cam" poemalarının müqayisəsi // Nizami Gəncəvi. Məqalələr məcmuəsi. Bakı: Azərbaycan Elmlər Akademiyası Nəşriyyatı, 1947, s. 88.

Elə buna görə də alleqoriyanın ədəbiyyatımız tarixindəki fəal mövqeyini, inkişafını məhz IV fəsildə Füzuli bədii təfəkkür işığında təhlil süzgəcindən keçirilmişdir. Odur ki, Məhəmməd Füzulinin bütövlükdə yaradıcılığı, özündən sonrakı Azərbaycan şerinə örnək və etalon olmaqda qalmışdır.

Azərbaycan ədəbiyyatında alleqoriya problematikasının rəngarəng aspektləri hələ öz fundamental tədqiqatını gözləyir. Bizim araşdırmada bir çox məsələlərin tezis halında qoyulması da bunu söyləməyə əsas verir. Ümumilikdə isə bədii ədəbiyyatda alleqoriya mövzusu çox maraqlı və elmi-nəzəri mündəricəli olması ilə seçilir.

Dissertasiyanın **Nəticə** hissəsində alleqoriya ətrafında gedən elmi–nəzəri, dini–irfani, bədii–estetik mülahizələr ümumiləşdirilir. Ədəbiyyatımızın klassik dövr sənətkarlarının yaradıcılığında müşahidə edilən alleqorik məqamlar, məcazi–metaforik fiqurlar, bədii təsvir və ifadə vasitələri ardıcıllıqla, ənənə və novatorluq istiqamətində təhlil olunur, bir araya gətirilir.

Giriş və dörd fəsildən ibarət dissertasiyada alleqoriya problematikası ilə bağlı nəzəri mühakimələr müqayisəli şəkildə çözələnir. Nəhayət deyə bilərik ki, alleqoriyanın bir bədii kateqoriya kimi ədəbi yaradıcılıqda yerini müəyyənləşdirərkən, mövzunu işləyərkən dünya ədəbiyyatının yazılı və şifahi nümunələrinə müraciətlə onun ədəbiyyatın müxtəlif ədəbi növ və janrlarında özünə müstəsna yer tapmasını, özəlliklərini əsaslandırmağa çalışmışıq.

**Dissertasiyanın əsas müddəaları aşağıdakı kitab, məqalə və konfrans materiallarında əks olunmuşdur:**

1. Füzulinin gizli sözü (monoqrafiya). Bakı: Yazıçı, 1990, 144 s.
2. Füzulini tədris edərkən (metodik vəsait). Bakı: İrşad, 1995, 40 s.
3. Böyük Füzulinin yadigarı (məqalələr məcmuəsi). Bakı: Ozan, 1995, 40 s.
4. Söz gözəlinin örtüyü (monoqrafiya). Bakı: Yazıçı, 2009, 184 s.
5. Məhəmməd Füzuli (məqalələr məcmuəsi). Bakı: Şəms, 2011, 94 s.
6. XV–XVI əsrlər klassik Azərbaycan poeziyasındakı simvol, ideya və mövzuların müsəlman mistiklərinin yaradıcılığı ilə qarşılıqlı əlaqəsi // Filologiya məsələləri, 2000, № 5, s.276-275.
7. "Bu qəmlər kim, mənim vardır…" // "Azərbaycan" jurnalı, 2002, № 3, s. 70-72.
8. "Səhldir hər qəm ki, ğəmxarı ola" // "Azərbaycan" jurnalı, 2003, № 9, s.178-181.
9. "Qələm sındırdı təsvirim..." // "Azərbaycan" jurnalı, 2005, № 12, s.151-158.

10. Alleqoriya söz sənətində bədii bəzək vasitəsi və eyhamlı deyim tərzi kimi // Filologiya məsələləri, 2006, № 2, s.138-147.

11. "Bu, quş dilidir …" // "Azərbaycan" jurnalı, 2007, № 6, s.172-178.

12. Nizami Gəncəvinin əsərlərindəki alleqorik təhkiyə qaydası // Filologiya məsələləri, 2007, № 7, s.276-283.

13. Klassik Azərbaycan ədəbiyyatında alleqoriyanın bədii–estetik təsvir və fikrin inikas vasitəsi kimi fəal rolu // Filologiya məsələləri, 2008, № 3, s.347-354.

14. Mir Cəlal Paşayevin tədqiqatında Füzuli alleqoriyası // Yazıçı və zaman Mir Cəlalın 100 illik yubileyinə həsr olunmuş elmi konfransın materialları. Bakı şəhəri, 25 aprel 2008, s.177-179.

15. Klassik poeziyamızda "gizli söz" // "Azərbaycan" jurnalı, 2008, № 5, s.170-172.

16. Şah İsmayıl Xətainin «Dəhnamə»si klassik alleqoriya örnəyi kimi // "Dil və ədəbiyyat" jurnalı, BDU, 2008, № 4 (64), s.75-77.

17. Orta əsrlər klassik Azərbaycan ədəbiyyatındakı alleqoriya və onun folklor əlaqələri // "Dil və ədəbiyyat" jurnalı, BDU, 2008, № 6 (60), s. 37-98.

18. Alleqoriyanın qədim və orta əsrlər epik şerdə nümunələri // "Dil və ədəbiyyat" jurnalı, BDU, 2009, № 1, s.111-112.

19. Allegory, Aphorism, wise saying and lessons as the literarysymbolij reflejtions // Актуальные проблемы гуманитарных и естественных наук. Журнал научных публикаций, Москва: 2010, № 5, с.177-179.

20. Nizami yaradıcılığında müşahidə edilən səciyyəvi bədii ifadə vasitələri haqqında // Filologiya məsələləri, 2012, № 6, s.361-368.

21. Ədəbiyyatda bəzi simvol və rəmzlər haqqında // Sivilizasiya jurnalı. Bakı Avrasiya Universiteti. 2014, № 6, s.87-90.

22. Klassik Azərbaycan ədəbiyyatı nümayəndələrinin yaradıcılığında təbiət alleqoriyası // BDU – nun "Dil və ədəbiyyat" jurnalı. Beynəlxalq elmi – nəzəri jurnal № 2 (90) Bakı, 2014, s. 222 – 225.

23. Alleqoriya və onun bədii ədəbiyyatdakı başlıca janr xüsusiyyətləri // BDU – nun "Dil və ədəbiyyat" jurnalı. Beynəlxalq elmi – nəzəri jurnal. Bakı, 2014, s. 139 – 141.

24. Klassik Azərbaycan poeziyasında təşxis və peyzajlar // Bakı Slavyan Universitetinin Elmi Əsərləri. Dil və ədəbiyyat seriyası, 2014, №3, s.58-63.

25. Orta əsrlər Azərbaycan ədəbiyyatındakı bəzi simvol və rəmz haqqında // Filologiya məsələləri, 2014, № 9, s.189-194.

26. Klassik Azərbaycan poeziyasında alleqoriya, simvol və rəmz problematikası Azadə Rüstəmovanın tədqiqlərində / Ədəbiyyat məcmuəsi. AMEA Nizami adına Ədəbiyyat İnstitutu. Çağımızdan görünən Orta əsrlər. AMEA – nın müxbir üzvü, Əməkdar Elm Xadimi, professor R.Azadəyə həsr olunmuş II Beynəlxalq Elmi Konfransın materialları. Bakı şəhəri, 15 – 16 dekabr, Bakı, 2014, s. 49 – 53.

27. Вершина аллегории в Азербайджанской литературе // Ученые Записки Таврического Национального Университета им. В.И.Вернадского. Серия "Филология, Социальные коммуникации". Симферополь: 2014, Том 27 (66), № 4, часть 1, с.222-228.

28. Слово как аллегорический образ в классической поэзии / Научные исследования в сфере гуманитарных наук: открытия века материалы II Международной научно–практической конференции 23–24 апреля 2015, «Пятигорский государственный лингвистический университет» Пятигорск, 2015, с.32-37.

29. Klassik Azərbaycan ədəbiyyatında musiqinin alleqorik təcəssüm modeli // "Dil və ədəbiyyat" jurnalı, BDU, 2015, № 4, s.110-114.

30."Dədə Qorqud" dastanlarında alleqoriyanın bədii inikası və onun klassik poeziyada davamı / Bakı Dövlət Universiteti Dədə Qorqud Beynəlxalq Konfransının materialları. Bakı şəhəri 29 dekabr. Bakı, 2015, s.100-110.

31. "Olum və ölüm" poetik interpretasiyada // Sivilizasiya jurnalı. Bakı Avrasiya Universiteti. 2015, № 9, s.140-143.

32.Особенности аллегории в средневековой Азербайджанской литературе ВІСНИК Днепропетровського Университету имени Альфреда Нобеля. Филологичнı науки. Днепропетровсk: 2016, 3 мıст 1(11), с. 66-71.

33.Классическая Азерабйджанская поэзия и способы аллегорического выражения. Хабаршы вестник bulletın "Филология гылымдары" сериясы. Серия "Филологические науки" Series of "Philological sciences", №3 (57), 2016, с. 101 – 106.

34.Allegory in the activity of representatives of Azerbaijan poetry school of middle ages //Journal Papers on language and literature. Thomson reuters. USA, Southern Illinois University, 2016, vol. 22, № 7, pp. 42-49

35.Alleqorik təsvir üsulunun klassik poeziyada bəzii özəl çalarları. Azərbaycan Respublikası Təhsil Nazirliyi. Bakı Slavyan Universiteti. Humanitar elmlərin öyrənilməsinin aktual problemləri (Ali məktəblər arası elmi məqalələr məcmuəsi), Bakı, 2017. №1, s. 141 – 145.

36.Nəsimi yaradıcılığında alleqorik təsvirlərin yeri və ideya – estetik yozumları / İmadəddin Nəsimi – 600. Beynəlxalq elmi konfransın materialları. Bakı şəhəri, 23 – 24 iyun 2017-ci il, Bakı, 2017, s. 150 – 154.

**Лалезар Икрам кызы Ализаде**

**Аллегория в классической Азербайджанской литературе (XII-XVI вв.)**

## РЕЗЮМЕ

Диссертация состоит из введения, четырёх глав, заключения и списка использованной литературы.

Введение диссертации состоит из актуальности, цели и обязательств, научных новостей, теоретико-методологических основ темы, теоретической и практической важности, апробации исследования.

В первой главе работы, под названием «Аллегория – форма художественно-символического выражения действительности», в трех разделах исследуются следующие вопросы: общий взгяд на термин аллегория; характерные особенности аллегории в различных жанрах художественных произведений; аллегория в мифологической и религиозной литературе.

Предмет второй главы диссертации под названием «Место аллегорических описаний и идея-эстетические изложения в средневековой Азербайджанской литературе», состоит из следующих вопросов: «Слово-как аллегорический образ в классической поэзии», «Аллегория – как один из основных ходожественный способов выражения в суфийском мировоззрении», «Роль аллегории Корана в формировании философско-художественного направления Ирфан (сакральное знание)», «Использование возможностей аллегории в художественном представлении социальных мотивов».

Проблема третьей главы под названием «Идея-художественные возможности аллегории в творчестве представителей классической Азербайджанской поэтической школы», состоит из пяти разделов и охватывает следующие вопросы: «Аллегория в творчестве представителей средневековой Азербайджанской поэтической школы», «Аллегория в творчестве Хагани Ширвани», «Аллегория в творчестве Низами Гянджеви», «Аллегория в Азербайджанской литературе XIII-XIV веков», «Идея-эстетическая позиция и функция аллегории в поэзии хуруфитов этого периода».

Последняя - четвертая глава называется «Этап Физули искусства аллегории в средневековой Азербайджанской литературе», и состоит четырех разделов, в которых изучаются «Аллегория в

лирической прозе дофизулинского периода», «Краткий экскурс в исследования по творчеству аллегории Мухаммада Физули», «Способы художественного выражения и метафорическая система лирики Мухаммада Физули», «Анализ и обощения цикла аллегорических произведений Мухаммада Физули».

В «Заключении» подводятся итоги проведенных исследовательских работ. В этом разделе обобщены выводы основные положения исследования и определены направления дальнейшего изучения темы.

**Lalezar Ikram gizi Alizade**

## Allegory in classic Azerbaijan literature (The $12^{th}$-$16^{th}$ centuries)

## SUMMARY

The dissertation work consists of the introduction, four parts, the conclusion and the list of the used literature.

In the introduction the actuality of the investigation is based on, the object, aim and duties of the investigation are determined, the scientific innovations, methods and sources, the practical and theoretical importance of the investigation are spoken about, the information about the structure of the investigation is given.

In the first part of the dissertation work called "Allegory is as the literary-symbolic reflection of the reality" the following problems are investigated in three chapters: "The general view to the term allegory", "The typical peculiarities of allegory realizing in different genres of the literary works" and "Allegory in mythological and religious literature".

The second part of the dissertation is called "The place of allegoric descriptions in the Middle Ages Azerbaijan literature and the idea-aesthetic meaning explanations" and it consists of the following chapters: "The word in the classic poetry as the allegoric character", "Allegory in Sufism outlook as one of the main artistic assignment means", "The role of Koran allegory in the formation of mysticism philosophical-literary direction", "The usage of opportunities of allegory in the literary assignment of the social motifs".

The third part of the dissertation called "The idea-artistic opportunities of allegory in the activity of representatives of classic Azerbaijan poetry school" consists of five chapters. The following problems are investigated in this part: "Allegory in the activity of representatives of Azerbaijan poetry school", "Allegory in the activity of Khagani Shirvani", "Allegory in the activity of Nizami Ganjavi", "Allegory in the $13^{th}$-$14^{th}$ centuries Azerbaijan literature", "The idea-aesthetic position, function of allegory in Hurufism poetry during that period".

The fourth-last part of the dissertation is called "The level of Fuzuli of the allegory art in the Middle Ages Azerbaijan literature" and it consists of four chapters: "Allegory in our lyric poem during Fuzuli period", "The short view to the investigation about Muhammad Fuzuli's allegory activity", "The artistic description means, metaphor system observed in

Muhammad Fuzuli's lyrics", "The analysis and generalizations of the chain of works written in allegoric form by Muhammad Fuzuli".

In the conclusion the results of the investigated work are summarized. In this part the main provisions of the investigation are carried out and the future directions of the investigated subject are shown.

Kağız formatı: 60/84 16/1

Sayı: 100

AMEA-nın mətbəəsində çap olunmuşdur.

**НАЦИОНАЛЬНАЯ АКАДЕМИЯ НАУК АЗЕРБАЙДЖАНА**
**ИНСТИТУТ ЛИТЕРАТУРЫ имени НИЗАМИ ГЯНДЖАВИ**

***На правах рукописи***

**ЛАЛЕЗАР ИКРАМ кызы АЛИЗАДЕ**

# АЛЛЕГОРИЯ В КЛАССИЧЕСКОЙ АЗЕРБАЙДЖАНСКОЙ ЛИТЕРАТУРЕ (XII-XVI ВЕКАХ)

**5716.01 – Азербайджанская литература**

**А В Т О Р Е Ф Е Р А Т**

**диссертации на соискание научной степени**
**доктора наук по филологии**

**БАКУ – 2017**